**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "AZƏRBAYCANIN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNDƏ İQTİSADİ İNKİŞAF İSTİQAMƏTLƏRİ VƏ ONUN ÜDM-Ə TƏSİRİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Əliyeva Tükəz Əli qızı**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**____________________________imza**

**“____” _______________ 20___-ci il**

# “AZƏRBAYCANIN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNDƏ İQTİSADİ İNKİŞAF İSTİQAMƏTLƏRİ VƏ ONUN ÜDM-Ə TƏSİRİ”

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060404 - İqtisadiyyat

**İxtisaslaşma:** İqtisadİ nəzəriyyə

**Qrup:** 16

**Magistrant:**
**Əliyeva Tükəz Əli qızı**
**_______________imza**

**Elmi rəhbər:**
**i.ü.f.d., dos. Hacıyev Natiq Qədim oğlu**
**_________________ imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos. Hümbətova Suqra İnqilab qızı**
**________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**__________________ imza**

**BAKI - 2022**

**Elm andı**

Mən, Əliyeva Tükəz Əli qızı and içirəm ki, “Azərbaycanın işğaldan azad olunmuş ərazilərində iqtisadi inkişaf istiqamətləri və onun ÜDM-ə təsiri” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**“AZƏRBAYCANIN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNDƏ İQTİSADİ İNKİŞAF İSTİQAMƏTLƏRİ VƏ ONUN ÜDM-Ə TƏSİRİ”**

## XÜLASƏ


**Tədqiqatın aktuallığı: Zamanla işğala məruz qalmış ərazilərin azad edilməsi ilə bu regionun yenidən dirçəldilməsinə nail olmaq dövlətimizin qarşıya qoyduğu əsas vəzifələrdən biri olmuşdur. Yenidənbərpa ilə bağlı dünya ölkələrinin təcrübəsindən yararlanaraq, yatırılacaq olan investisiyalar ilə sürətli şəkildə rayonların yenidən qurulması ölkənin qeyri-neft sektorunda və digər iqtisadi gözləntilərində yüksəlişin əldə edilməsinə səbəb olacaqdır.**

**Tədqiqatın məqsədi: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarındakı mövcud iqtisadi potensialı təhlil etməklə, bu regiona yatırılacaq investisiyalar ilə reallaşdırılacaq işlərin planlaşdırılmasıdır.**

**İstifadə olunmuş tədqiqat metodları: Aparılan dissertasiya işində tədqiqat metodlarından olan müşahidə, müqayisə tədqiqat növlərinin daxil olduğu emprik metoddan, kəmiyyət və keyfiyyət metodlarından istifadə olunmuşdur.**

**Tədqiqatın informasiya bazası: Tədqiqatın informasiya bazasını Dövlət Statistika Komitəsinin, İqtisadiyyat Nazirliyinin, Aqrar Tədiqiqat Mərkəzinin, Dünya Bankının, Dünya İnvestisiya Hesabatının məlumatları, bunlarla birgə qanun və sərəncamlardan, elmi jurnallardan və sair materiallar təşkil etmişdir.**

**Tədqiqatın məhdudiyyətləri: Ərazilərin işğalı nəticəsində bu regiona məxsus olan statistik göstəricilərin və məlumat bazasının olmaması tədqiqat işinin aparılmasını kifayət qədər məhdudlaşdırmışdır.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Tədqiqatın aparılmasındakı araşdırılan mövzu ilə bağlı görüləcək işlərin ərazidəki mövcud vəziyyətə uyğun reallaşdırılmasına kömək edəcəkdir. Münaqişənin doğurduğu təsirlərin dəyərləndirilməsi, xarici ölkələrin bu dövr ərzində gördüyü tədbirlərin araşdırılması, geri alınan rayonların iqtisadi potensialının araşdırılması və regiona yatırılacaq olan investisiyaların dəyərləndirilməsi ilə işğal dövrünü geridə qoymuş rayonlarımızda zamanla görüləcək olan yenidən qurma prosesini və nəticədə iqtisadi göstəricilərə təsirini müəyyən etməyə imkan yaradacaqdır.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Araşdırmanın nəticələrdən azad olunan rayonların yenidən qurulmasında, bu ərazilərdə sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılmasına nail olmaq üçün yeni istiqamətlərin müəyyən olunmasında və ərazilərə xarici investisiya axınının artırılması üçün yeni qərarların qəbul olunmasında istifadə oluna bilər.**



***Açar sözlər: Azərbaycan, ərazi, işğal, inkişaf, bərpa, iqtisadi.***

## “DIRECTIONS OF ECONOMIC DEVELOPMENT IN THE LIBERATED TERRITORIES OF AZERBAIJAN AND ITS IMPACT ON GDP”

## SUMMARY

**The actuality of the subject: Achieving the revival of this region with the liberation of the occupied territories over time has been one of the main tasks set by our state. Using the experience of other countries in the field of reconstruction, the rapid recovery of the regions through investment will lead to an increase in the non-oil sector and other economic expectations of the country.**

**Purpose and tasks of the research: It is to analyze the existing economic potential in the economic regions of Karabakh and East Zangazur, and to plan the work to be done with investments in this region.**

**Used research methods: The empirical method, which includes observational and comparative research types, quantitative and qualitative methods were used in the dissertation.**

**The information base of the research: The research database consists of information from the State Statistics Committee, the Ministry of Economy, the Agrarian Research Center, the World Bank, the World Investment Report, as well as laws and regulations, scientific journals and other materials.**

**Restrictions of research: As a result of the occupation of the territories, the lack of statistical data and a database belonging to this region significantly limited the research work.**

**The novelty and practical results of investigation: The measures to be taken on the research topic will help to implement it in accordance with the current situation in the area. The assessment of the consequences of the conflict, the study of the measures taken by foreign countries during this period, the study of the economic potential of the renewable regions and the the investments to be made in the region will help to determine the timing of the recovery process and its impact on economic indicators.**

**Scientific-practical significance of results: In the reconstruction of the from the results of the study, in identifying new directions to improve the socio-economic situation in these areas and in making new decisions to increase the flow of foreign investment in the territories.**

***Keywords: Azerbaijan, territory, occupation, development, restoration, economic.***

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **ASAN** | Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi |
| **AzPromo** | Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Agentliyi |
| **ASK** | Aqrar Sənaye Kompleksi |
| **BXİ** | Birbaşa Xarici İnvestisiyalar |
| **COVİD-19** | Pandemiya |
| **İAEƏ** | İşğaldan Azad Edilmiş Ərazilər |
| **İİTKM** | İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi |
| **İKT** | İnformasiya və Kommunikasiya Texnologiyaları |
| **QSC** | Qapalı Səhmdar Cəmiyyəti |
| **MR** | Muxtar Respublikası |
| **Mln** | Milyon |
| **Mlrd** | Milyard |
| **ÜDM** | Ümumi Daxili Məhsul |

**MÜNDƏRİCAT**


| | | |
|---|---|---|
| | **GİRİŞ…………………………………………………………………** | **8** |
| **I FƏSİL.** | **İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN İQTİSADİ İNKİŞAFI VƏ GERİ QAYTARILMIŞ ƏRAZİLƏRİN BƏRPASI İLƏ BAĞLI NƏZƏRİ VƏ TƏCRÜBİ YANAŞMALAR………………………………………………...** | **12** |
| 1.1. | Azad olunmuş ərazilərin iqtisadi inkişafı və ərazilərin bərpasının nəzəri əsasları………………………………………………………… | 12 |
| 1.2. | Münaqişə nəticəsində iqtisadiyyata təsir edən əsas faktorlar……… | 18 |
| 1.3. | Müharibənin iqtisadi zərəri və postmüharibə dövrünün inkişaf istiqamətlərinin dünya təcrübəsi……………………………………… | 23 |
| **II FƏSİL.** | **İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN İQTİSADİ ARTIM POTENSİALI……………………………………………** | **28** |
| 2.1. | Azad olunmuş rayonların mineral xammal ehtiyatlarının əsas iqtisadi resurs və sərvət kimi əhəmiyyəti…………………………… | 28 |
| 2.2. | İşğaldan azad olunmuş ərazilərin zəngin qeyri-neft iqtisadi inkişaf potensialı…………………………………………………………………… | 34 |
| 2.3. | Azad edilmiş ərazilərin canlanmasının iqtisadi aspektləri və investisiyaların sektorlar üzrə analizi……………………………… | 39 |
| **III FƏSİL.** | **AZAD OLUNMUŞ RAYONLARIN BƏRPASININ İQTİSADİ İNKİŞAFA VƏ ÜDM GÖSTƏRİCİLƏRİNƏ TƏSİRİ…………** | **49** |
| 3.1. | İşğaldan azad olunmuş rayonların bərpası və yeni iş yerlərinin yaradılması…………………………………………………….................. | 49 |
| 3.2. | Qarabağ və Şərqi Zəngəzur regional bölgələrinin inkişafının Azərbaycan ÜDM-nə təsiri……………………………..................... | 56 |
| | **NƏTİCƏ VƏ TƏKLİFLƏR………………………………………** | **64** |
| | **İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI……………...** | **69** |
| | Sxemlərin siyahısı……………………………………………………... | 75 |
| | Cədvəllərin siyahısı…………………………………………………… | 75 |
| | Şəkillərin siyahısı…………………………………………………….. | 75 |
| | Qrafiklərin siyahısı…………………………………………………… | 75 |

# GİRİŞ

**Mövzunun aktuallığı:** Hal-hazırda ölkənin iqtisadi və regional inkişafı baxımından ən öndə duran məsələlərdən biri işğaldan azad olunmuş ərazilərin tezliklə bərpa olunması və bununla da azad olunmuş ərazilərimizdə qurulacaq yeni infrastruktur, yatırılacaq daxili və xarici investisiyaların ölkəmizin regional və beynəlxalq iqtisadi inteqrasiya prosesinin sürətlənməsinə verdiyi töhfədir. Hazırda bu istiqamətdə planlaşdırılan və atılan addımlar əvvəllər münaqişədən əziyyət çəkmiş ölkələrin təcrübəsinə əsaslanmışdır. İlkin olaraq dəymiş maddi ziyan hesablanmış, daha sonra yenidənqurma işləri üçün lazımi vəsait hesablanmış və ərazilərin minalardan təmizlənməsi üçün tədbirlər həyata keçirilmişdir. Hətta həmin ərazilərimizin yenidən bərpa işlərinin sürətləndirilməsi və inkişafı üçün yatırılan investisiyalarla yanaşı qonşu ölkələrdən ölkəmizə işçi qrupları da göndərilmişdir. Münaqişənin uğurla başa çatması ilə ölkəmizin qarşısında daha önəmli məsələlərdən olan, işğaldan azad olunmuş ərazilərin bərpası, regional və beynəlxalq iqtisadi inteqrasiyasının sürətlənməsinə nail olmaq dayanırdı. Qeyd edilən məqamlardan aydın olur ki, hazırda həm iqtisadi, həm də siyasi baxımdan ölkəmiz üçün ən prioritet məsələ azad edilmiş ərazilərimizin iqtisadi inkişafıdır. Elə bu məqam özü də seçilmiş dissertasiya işinin aktuallığının bariz nümunəsidir. Mövzununda araşdırma istiqaməti bu yöndə olmuşdur.

**Problemin qoyuluşu və öyrənilməsi səviyyəsi:** 44 günlük vətən müharibəsindən sonra iqtisadi tədqiqatlarda azad olunmuş ərazilərə qarşı bu istiqamətdə bir çox müəlliflər tərəfindən yazılmış kitablar və elmi məqalələr dərc edilmişdir. Bu müəlliflərə misal olaraq, Abbasova T.C., Bağırov O., Cəfərova E., Fikrətzadə F.F., Məmmədov R.H., Namazova C.B. və başqalarını qeyd etmək olar. Bununla birgə xarici ölkə alimləri tərəfindən müharibədən əziyyət çəkmiş ölkələrin həmin ərazilərin bərpası üçün atdığı addımlar araşdırılmışdır. Misal olaraq B.Karamızrak., C.Karaca., Devarajan S., Mottaghi L., Makdisi S. və Raimundo Soto – nun tədqiqatlarını göstərmək olar. Bununla yanaşı dünya miqyasında önəmli

münaqişələrdən olan İkinci Dünya müharibəsi nəticəsində dağıdılmış ərazilərin bərpasını da qeyd edə bilərik. Ölkəmizdə də müharibə başa çatdıqdan sonra dağıdılmış rayonların bərpası, dəyən zərərin araşdırılması və bu problemlərə qarşı atıla biləcək addımlar da araşdırılmışdır. Beləliklə, tədqiqat işində azad olunmuş ərazilərin iqtisadi potensialı daha ətraflı dəyərləndirilmiş və dünya ölkələrinin postmüharibə təcrübəsindən istifadə olunmuşdur.

**Tədqiqatın məqsədi və vəzifələri:** Tədqiqat işinin əsas məqsədi Qarabağ və Şərqi Zəngəzur regional bölgələrinin iqtisadi potensialının müəyyən edilməsi və bu yerlərin inkişafı üçün atıla biləcək addımların təyin olunmasıdır. Eyni zamanda dissertasiya işinin digər məqsədi azad edilmiş ərazilərin iqtisadi potensialı müəyyən olunduqdan sonra həmin ərazilərin iqtisadi inkişafı üçün görüləcək işlərin planlaşdırılması və bu istiqamət üzrə müəyyən töhfə verməkdən ibarətdir.

Dissertasiya işində qarşıya qoyulan məqsədə çatmaq üçün tədqiqatın məntiqi və iş quruluşunu müəyyənləşdirən vəzifələr aşağıdakılardır:

- Azad olunmuş rayonların resurs potensialının araşdırılması;
- İlkin iqtisadi şərtlərin təhlili;
- Regiona maraq göstərən və göstərə biləcək investorların cəlbi;
- Postmüharibə dövründə olan ölkələrin təcrübələrinin dəyərləndirilməsi;
- Azad olunmuş rayonların inkişafının iqtisadi göstəricilərə təsirinin təhlilidir.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti 44 günlük müharibə nəticəsində Azərbaycan ordusunun işğaldan azad etdiyi ərazilərin inkişafıdır. Bu ərazilərin iqtisadi resurs potensialını təhlil etmək və həmin ərazilərin inkişafı nəticəsində iqtisadi göstəricilərə təsir dairəsini öyrənməkdən ibarətdir. Tədqiqat işinin predmeti isə dünya ölkələrinin təcrübəsinə əsaslanaraq azad olunmuş ərazilərin inkişafına dair atıla biləcək addımların təhlilindən ibarətdir. Araşdırmalar nəticəsində indiyə qədər tətbiq edilən və daha səmərəli nəticələr əldə olunan tədqiqatların hansı olduğunu müəyyən edərək həmin ərazilər üçün bu tədbirlərin həyata keçirilməsini təmin etmək daha məqsədəuyğundur.

**Tədqiqat metodları:** Aparılan tədqiqat işində, əsasən, müşahidə, müqayisə, eksperiment və s. üsulları özündə birləşdirən empirik metoddan istifadə edilmişdir. Belə ki, bir çox tədqiqatçıların söylədikləri fikirlərdə və irəli sürdükləri mülahizələrdə yaranan nəticələrə, azad olunmuş ərazilərin inkişafı istiqamətində beynəlxalq təcrübəyə toxunulmuşdur. Qeyd olunan metodlarla yanaşı kəmiyyət və keyfiyyət metodlarından da istifadə edilmişdir. Kəmiyyət tədqiqatları metodundan istifadə etməklə ərazilərimizin bərpası üçün lazım olacaq maddi vəsaitlərin, investisiyaların, habelə işçi qüvvəsinin və s. kimi resursların rəqəm olaraq göstərilmişdir. Digər metod olan keyfiyyət tədqiqat növündə isə müşahidə metodlarından daha çox istifadə edilmişdir. Müşahidə tədqiqat metodunu seçilməsində əsas məqsəd tarix boyunca ərazisində müharibə ilə üzləşən və müharibədən sonrakı dövrdə iqtisadi inkişaf üçün xüsusi addımlar atan ölkələrin praktikalarını müşahidə etmək, öyrənmək və onların ən uğurlularını azad olunmuş ərazilərimizin iqtisadi inkişafı üçün tətbiq edilməsidir.

**Tədqiqatın informasiya bazası:** Tədqiqatın informasiya bazasını azad olunmuş ərazilərdəki potensialın dəyərləndirilməsi ilə bağlı müəlliflərin əsərləri və məqalələri əsasında toplanmış məlumatlar, bu ərazilərdə işğala qədər yetişdirilən məhsulların Dövlət Statistika Komitəsinə aid göstəriciləri, İqtisadiyyat Nazirliyinin, Aqrar Tədiqiqat Mərkəzinin məlumat bazası və bunlarla birgə azad olunan ərazilərə yerli və xarici investisiyaların cəlb edilməsinin istehsal sahələrinin inkişafına təsiri üzrə istehsal sahələrinin inkişafına təsiri üzrə analizi təşkil etmişdir. Sadalanan tədqiqatın resurs bazasına həmçinin, Dünya Bankının, Dünya İnvestisiya Hesabatının məlumatları da daxildir.

**Tədqiqatın məhdudiyyətləri:** 30 ilə yaxın ərazilərin işğal altında olması nəticəsində bu ərazilər haqqında məlumat bazasının demək olar ki olmaması, tədqiqat işi apararkən işğaldan əvvəlki illərin dəyərləndirilməsi nəticəsində məlumatların toplanmasına səbəb olmuşdur. Bununla yanaşı rəsmi mənbələrə istinadən yazılmalı olan informasiya bazasındaki məlumatlaın da məhdud olması tədqiqat işinin məhdudiyyətlərindəndir.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqat mövzusunun elmi yeniliyi bunlarda təşkil olunmuşdur:

- Azad olunmuş rayonların iqtisadi potensialına uyğun bir şəkildə ərazilərdə yenidənqurması istiqamətləri araşdırılmış;
- Müharibənin iqtisadi təsirləri və dünya ölkələrində postmüharibə dövrünün inkişaf istiqamətləri dəyərləndirilmiş;
- Azad olunan rayonların yenidən canlanması üçün reallaşdırılan tədbirlər vurğulanmış və region üçün xüsusi önəm kəsb edən investisiyaların analizi aparılmış;
- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafına nail olmaqla onun iqtisadi göstəricilərə təsiri dəyərləndirilmişdir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Aparılmış tədqiqat işinin praktiki əhəmiyyəti zamanla işğala məruz qalmış ərazilərdəki mövcud potensial inkişaf istiqamətlərini və bununla görüləcək olan işlərin, ölkənin iqtisadi göstəricilərindən olan Ümumi Daxili Məhsuldakı (ÜDM) rolunun müəyyən edilməsindən ibarətdir. Ordumuz tərəfindən geri qaytarılan rayonlarda qurulacaq olan infrastruktur obyektləri, sənaye və xidmət sahələri, yatırılacaq olan investisiyalar və s. bunun kimi məsələlərin həllinə nail olmaq üçün nəticə və təkliflər verilmişdir.

Tədqiqat işindən əldə olunmuş nəticələrdən işğaldan azad edilən rayonların yenidən qurulmasında, bu ərazilərdə sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılmasına nail olmaq üçün yeni istiqamətlərin müəyyən olunmasında və ərazilərə xarici investisiya axınının artırılması üçün yeni qərarların qəbul olunmasında istifadə oluna bilər. Bununla yanaşı dissertasiya işində aparılmış təhlillərdən, tərtib olunan cədvəl, qrafik, sxem və şəkil materiallarından ali təhsil müəssisələrində mənbə kimi istifadə edilə bilər.

# I FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN İQTİSADİ İNKİŞAFI VƏ GERİ QAYTARILMIŞ ƏRAZİLƏRİN BƏRPASI İLƏ BAĞLI NƏZƏRİ VƏ TƏCRÜBİ YANAŞMALAR

## 1.1. Azad olunmuş ərazilərin iqtisadi inkişafı və ərazilərin bərpasının nəzəri əsasları

Azərbaycan tarixində unudulmayacaq bir il kimi qalacaq olan 2020-ci il, ölkəmizin öz ərazi bütövlüyünü təmin etməsi ilə yadda qalmış oldu. Bildiyimiz kimi, torpaqların geri alınması öz növbəsində ərazilərdə işğalçı ölkə tərəfindən törədilmiş olan dağıntıların aşkar olunmasına səbəb oldu. 30 ilə yaxın işğalçılıq dövründə erməni vandalları məscidləri, yaşayış binalarını, məktəbləri, bağçaları və bunun kimi digər obyektləri yerlə yeksan etmişdilər. Bu ərazilərin zamanla öz sahibinə qayıdacağını bilən ermənilər, işğala məruz qoyduqları ərazilərdə heç bir quruculuq işləri aparmamışdırlar.

Hal-hazırda azad olunan regiona təşkil olunan media və xarici ölkə nümayəndələrinin səfərləri sayəsində ərazilərdə törədilən vəhşiliyin bir daha dünya ictimaiyyətinə çatdırılmasına dair bir növ addımlar atılmış olur. Xüsusilə onuda qeyd etmək lazımdır ki, azad olunan rayonlara səfər edən xarici ölkələrin nümayəndələri bu ərazilərdən sadəcə biri olan Ağdamı Cənubi Qafqazın Xrosiması kimi qələmə vermişdirlər (Bağırov O., 2020).

Zamanla dünya ölkələrində baş verən müharibələrdən sonra atılmış olan addımlar dəymiş olan zərərin miqyasından asılı olmuşdur. Eləcə də geri alınan ərazilərin bərpası üçün görüləcək olan işlər ərazilərə dəymiş olan zərərin dərəcəsindən asılı olacaqdır. İlkin araşdırmalar nəticəsində işğalçı ölkə tərəfindən ərazilərə vurulmuş zərərin yüksək olduğu öz əksini tapmışdır (Müzəffərli N. və İsmayılov E., 2009).

İkinci Qarabağ müharibəsinin nəticəsi olaraq azad edilən rayonlarda ilkin olaraq görülməli olan tədbirlərdən biri minalardan təmizləmə istiqamətində işlərin

başlanması idi. Sonrakı tədbirlər, dağıdılmış olan ərazilərdəki yaşayışın təminatı üçün infrastrukturun yenidən qurulmasıdır (Kaşiyeva F., 2021).

Bildiyimiz kimi regionda əkinçilik və heyvandarlığın inkişafı üçün mövcud resursların olması, 1991-ci ildə müstəqilliyin bərpa edilməsi ilə kənd təsərrüfatı sahəsinin inkişafına gətirib çıxartmışdır (İbrahimov İ.H., 2021).

Qeyd olunduğu kimi, işğaldan azad edilən ərazilərin (İAEƏ) inkişafı üçün atılacaq olan addımlar əhalinin rifah halının yüksəldilməsinə və iqtisadi gözləntilərin artmasına gətirib çıxaracaqdır. Bu ərazilərdə olan torpaqlar kənd təsərrüfatı məhsullarının yetişdirilməsi üçün əlverişlidir. Ancaq, təəssüflər olsun ki, işğalçılar bu torpaq sahələrinin 647,900 hektarını məhv etmişdirlər. Daha da ümumiləşdirsək deyə bilərik ki, zamanla istifadə edə bilmədiyimiz 1,7 milyon hektar torpaq sahəsi hal-hazırda ölkənin kənd təsərrüfatı üçün geri alındı. Beləliklə, təkcə kənd təsərrüfatı sahəsi deyil öz növbəsində sənaye və emal sahələrinində yenidən bərpası mümkün olacaqdır (İbrahimov R., 2021).

Geri alınan ərazilərdə yeraltı və yerüstü sərvətlərlə yanaşı kurort-rekreasiya potensialına sahibdir. Təbii sərvətlərə: qızıl, civə, xromit, filiz və s. kimi mineral ehtiyatları misal göstərə bilərik.

İşğaldan öncə bu ərazilərdə yüngül, yeyinti və tikinti materialları kimi sənaye sahələri inkişaf etmişdir. Əhalinin ərzaqla təminatında qeyd edilən sahələr xüsusi əhəmiyyətə sahib olmuşdur. Regionda mineral su müəssisələrindən İstisu və Turşsu, müxtəlif şərab zavodları, böyük ipək kombinatı sayılan "Qarabağ İpək Kombinatı" da vaxtı ilə burada fəaliyyət göstərmişdir (Manafov Q., 2021).

Azad olunan ərazilərdə olan potensial bir daha onu sübut etmiş olur ki, bu ərazilərin inkişafına nail olmaq aşağıdakı sektorların dirçəlməsinə gətirib çıxaracaqdır:

- Kənd təsərrüfatında: atçılıq (xüsusilə Qarabağ atları), dənli bitkilərin istehsalı, heyvandarlıq
- Sənaye sahəsində: ət və süd sənayesi, xalçaçılıq və s.

- Xidmət sahəsində: turizm və musiqi (Müzəffərli N. və İsmayılov E., 2009).

Bəhs olunan regionun işğaldan əvvəlki illərdəki göstəricilərinə nəzər yetirsək ölkənin Ümumi Daxili Məhsul (ÜDM) istehsalında və bununla birgə üzüm, kartof, ət, süd məhsulları istehsalının müvafiq olaraq 24%, 41%, 46%, 18% və 34% -i azad olunan ərazilərin payına düşdüyünü görə bilərik (Rəşid L., 2020).

Hal-hazırda resublikamızda vacib problemlərdən olan şirin su ilə təminat problemi hələ də tam olaraq həllini tapmamışdır. Ancaq azad olunmuş ərazilərin su ehtiyatları ilə zəngin olması, həm də bir növ əkin sahələrinin suvarılması üçün lazım olan və öz növbəsində içməli su ilə bağlı olan problemlərin həlli üçün töhvə verəcək kompleks tədbirlərin həyata keçirilməsinə gətirib çıxardacaqdır (İbrahimov R., 2021).

O da şübhəsiz deyildir ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları öz təbii iqlim və iqtisadi potensialı ilə ərazidə turizm və xidmət sektorlarının inkişafına səbəb olacaqdır. Bununla bağlı hal-hazırda da dövlət və özəl sektorların birgə təşəbbüsü sayəsində layihə işləri hazırlanır. Bu ərazilərdə olan təbii və turizm resurslarını nəzərdən keçirsək görə bilərik ki, buranı alpinizm, ekoturizm, etnoturizm ərazisi kimi inkişaf etdirmək daha uyğun olacaqdır (Rəşid L., 2020).

Qeyd olunan məsələlərlə bağlı dövlət tərəfindən ərazilərə göstəriləcək olan dəstək tədbirlərinə kənd təsərrüfatı sahəsini də xüsusi olaraq qeyd etməliyik. Belə ki, işğaldan əvvəlki illərdə torpaq sahəsinə sahib olan fermerlərə, bu torpaqlar təmənnasız olaraq öz mülkiyyəti kimi özlərinə verilməsi nəzərdə tutulur. Beləliklə, torpaqları öz sahiblərinin ixtiyarına verərək fermerlər üçün güzəşli şərtlər tətbiq edilməli və fermerlərin fikirləridə məsləhət xidməti olaraq dialoq şəklində dinlənilməlidir (Müzəffərli N. və İsmayılov E., 2009).

Ölkəmiz tərəfindən azad olunan ərazilərlə bağlı bir sıra konsepsiyalar hazırlanmış və həyata keçirilməsinin əsasında regionun kənd təsərrüfatı, sənaye və turizm kimi sənaye sahələrinin inkişafı dayanır (Manafov Q., 2021).

Bərpa prosesinin mərhələlərlə reallaşdırılması üçün ilkin mərhələ olaraq 2021-ci il üzrə 2,2 milyard dollar ayrılması planlaşdırılmışdır. Sonrakı mərhələ olaraq, özəl və

xarici investisiyaların cəlbinə nail olmaq üçün işlər aparılacaqdır (Məmmədov R.H., 2021).

Geri alınmış olan əraziləri öz inkişafı ilə ölkəmizin iqtisadi fəaliyyətində əsas rola malik olmalıdır. Regionda mövcud olan təbii resurslar və tarixi imic qeyd edilən ərazilərə sərmaye cəlbinə səbəb olacaqdır (Abbasova T.C. və Gözəlova S.M., 2021).

Bütün bu sadalanan işlərin həyata keçirilməsi və eləcə də müasir infrastrukturun qurulması Qarabağın inkişafına nail olmağın əsas yollarındandır. Ona görə ki, hər hansı bir ərazi ilk növbədə bərpa olunmalı, sonra isə sosial-iqtisadi inkişafı istiqamətində işlər aparılmalıdır. Ərazilərdə bərpa yenidənqurma işlərinin aparılması həm də öz növbəsində iş yerlərinin artmasına və bununla da işsizlik göstəricilərinin azalmasına səbəb olmuş olacaqdır. Azad olunan rayonlarda sıfırdan bərpa prosesi gedəcəyi üçün burada texnoloji yeniliklərin daha rahat istifadəsi mümkün olacaqdır. Bütün bu bərpa proseslər zamanı ölkəmiz tərəfindən əldə olunacaq olan təcrübə başqa rayonlarımızada tətbiq edilə bilər.

Beləliklə, yenidən bərpa prosesi üçün müəyyən olunmuş məqsədlər aşağıdakı sxemdə göstərilmişdir:

**Sxem 1: Yenidən bərpanın həyata keçirilməsi üçün müəyyən edilmiş məqsədlər**




**Mənbə:** Bağırov O., 2020 məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir

Qeyd olunan məqsədlərə varmaq üçün dövlətimiz müvafiq zəruri tədbirlər həyata keçirir. Misal olaraq, 2020-ci il noyabrda Əlaqələndirilmiş Qərərgahı və daxildə İdarələrarası Mərkəzin yaradılmasının qeyd edə bilərik. Bu mərkəzdə qarşıya

qoyulacaq məsələlərin icrası üçün 17 işçi qrup yaradılmışdır. Yaradılmış olan qrupların planlı və kompleksləşdirilmiş fəaliyyətini təşkil etmək üçün “Strateji Fəaliyyət Planı” tərtib olunmuşdur.

**Cədvəl 1: Əlaqələndirilmiş Qərərgah tərəfindən qarşıya qoyulacaq olan məsələləri reallaşdıracaq olan işçi qruplar**

| | **İşçi qrup** |
|---|---|
| **1** | Hərbi və siyasi məsələlərə dair |
| **2** | Fövqəladə hallar və humanitar məsələlərə dair |
| **3** | Hüquqi və beynəlxalq əhəmiyyətli hüquqi məsələlərə dair |
| **4** | Nəqliyyat və logistika üzrə |
| **5** | Minalardan və zamanında partlamayan hərbi sursatlardan təmizləməyə dair |
| **6** | Beynəlxalq təşkilatlar və QHT-lərlə əlaqələrə dair |
| **7** | Tarix-mədəniyyət abidələri və mədəniyyət müəssisələrinə dair |
| **8** | Şəhid olanlar və itkin düşən şəxslərə dair |
| **9** | Media ilə iş və informasiyanın təminatına dair |
| **10** | İqtisadi məsələlərə dair |
| **11** | Şəhid olmuş şəxslərin ailələri, müharibə əlilləri, veteranları və müharibə iştirakçılarının sosial müdafiəsinə dair |
| **12** | Akademik məsələlərə dair |
| **13** | Ekoloji məsələlərə dair |
| **14** | Şəhərsalma məsələlərinə dair |
| **15** | Nəqliyyat-rabitə və yüksək texnologiyalara dair |
| **16** | Azad olunmuş ərazilərə köçkün əhalinin qayıdışı məsələlərinə dair |
| **17** | Enerji təminatı məsələlərinə dair |

**Mənbə:** Bağırov O., 2020 məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir

Bu məsələlərin uğurla həyata keçirilməsi üçün məqsəd olaraq, dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiya müəyyən olunmuşdur. Bununla da dövlətimizin bu işə necə böyük önəm verməsini bir daha görmüş oluruq (Bağırov O., 2020).

II Qarabağ müharibəsinin qələbə ilə bitməsi zamanla öz torpaqlarından köçkün düşmüş əhalinin öz doğma torpaqlarına qayıtmasına bir növ şərait yaratmış oldu. Məcburi köçkünlərin doğma torpaqlarda daimi məskunlaşmasını təmin etmək üçün isə sağlam və müasir yaşayış mühiti yaradılmalıdır (Namazova C.B., 2021).

Azad olunan ərazilərdə layiqli yaşayışı, tam müasir infrastrukturu, yeni xidmətlərin əlçatanlığına nail olmaqla regionda vətəndaşların əbədi məskunlaşması təmin etmək mümkündür. Bununla yanaşı ərazilərdə mövcud olan iqtisadi

potensialdan düzgün istifadə etməli və bununla da əhalinin məskunlaşma səviyyəsi münaqişədən əvvəlki səviyyəyə çatdırılmalıdır (Qurbanov A.A., 2021).

Deyildiyi kimi, işğaldan əvvəlki yaşayışı təmin etməklə regionun ölkə üzrə iqtisadi göstəricilərdəki payını işğaldan öncəki səviyyəyə yüksəldə və davamlı olaraq daha da artıra bilərik. Zamanla bölgədə yeni beynəlxalq və regional olan nəqliyyat-logistika dəhlizinin yenidən bərpası ilə ölkəmiz dünya bazarına çıxış imkanını daha da artırmış olacaqdır (Nadirova A.İ., 2021).

İşğaldan azad olunan ərazilərdə zamanla reallaşacaq tədbirlərlə bağlı bir sıra fikirlər önə sürülmüşdür. Bu fikirlərdən birinə diqqət yetirək:

**Sxem 2: Azad olunan ərazilərdə aparılacaq olan tədbirlərin rayonlar üzrə dəyərləndirilməsi**




**Mənbə:** Allahverdiyeva A.U., 2021 məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir

Zamanla həyata keçiriləcək olan tədbirlərin zəruriliyini ərazilərin bərpası ilə bağlı qəbul olunan Azərbaycan Respublikası Qanunlarında, Strateji Yol Xəritəsinin reallaşdırılmasına dair işlərdən və eləcə də sosial-iqtisadi inkişaf üçün atılacaq olan məqsədli dövlət proqramından görmək mümkündür.

Xüsusi əhəmiyyət kəsb edən digər tədbirlərdən biri geri alınan ərazilərə mərhələlərlə qaytarılacaq olan ölkə vətəndaşlarının sayını və demoqrafik tərkibini müəyyənləşdirməkdən ibarətdir. Qeyd edilən tədbirlərin həyata keçirilməsi üçün isə

ilk olaraq ərazilərdə dağıdılmış olan yaşayış məntəqələri və infrastruktur yenidən bərpa olunmalıdır.

Regiona köçürüləcək olan əhalinin təhlükəsizliyinin təminatı üçün isə ən başlıca olaraq atılacaq addım sərhəd təhlükəsizliyinin tam təmin olunması və minalanmış ərazilərin təmizlənməsidir. İşğalçı ölkə tərəfindən Azərbaycana vurulmuş olan maddi və mənəvi zərər beynəlxalq ekspertlər tərəfindən tam dəqiq hesablanıb müəyyən olunaraq, dəymiş olan ziyanın ödənilməsi üçün işlər aparılmalıdır (Allahverdiyeva A.U., 2021).

Regionun yenidən bərpası çox sayda yeni iş yerlərinin açılmasına və bununla da əhalinin işlə təminatı probleminə öz təsirini göstərmiş olacaqdır. Beləliklə, ərazilərdə yaradılacaq iqtisadi dəyər dövlətimizin maliyyə xərclərini üstələmiş olacaqdır (Rüstəmova G.M., 2021).

Zəfərlə yekunlaşan Vətən Müharibəsi nəticəsində son əsrdə xalqımız hərbi və diplomatik sahədə öz sözünü demiş oldu. Qazanılmış olan qələbə sayəsində baş tutacaq “Böyük Qayıdış” əhalinin məskunlaşmasında və eləcə də regionun ölkədəki əsas iqtisadi fəaliyyətə daxil olmasına şərait yaratmış olacaqdır (Qurbanov A.A., 2021).

Ölkə başçısının çıxış etdiyi geridə qoyduğumuz 2020-ci ilin yekunlarına dair keçirilən müşavirədə söylədiyi kimi: “... Bərpa işləri artıq başlanıb və bu, onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında bu dəfə də heç bir fərq yoxdur ...” (Fikrətzadə F.F. və Hacıyeva S.İ., 2020: s.24).

İşğaldan əvvəl də olduğu kimi, ərazilərə dönəcək olan insanların təhlükəsizliyi təmin olunmalı və bu rayonlar respublikamızın ən abad guşələrindən birinə çevrilməsi üçün işlər görülməlidir. Aparılacaq olan işlər dövlət və özəl sektorların birgə tərəfdaşlığı nəticəsində reallaşdırılmalıdır (Qurbanov A.A., 2021).

### 1.2. Münaqişə nəticəsində iqtisadiyyata təsir edən əsas faktorlar

Dünyada baş verən müharibələr iştirakçı olan ölkələrin iqtisadiyyatında ciddi zərbələrə səbəb olur. Birmənalı deyildir ki, zamanla baş vermiş olan müharibələr iqtisadi inkişafa mane olmaqla yanaşı rifahında pozulmasına gətirib çıxardır.

Müharibənin səbəb olduğu ən qısamüddətli iqtisadi təsir olaraq qiymətlərin qaldırılmasını və nəticə olaraq həyat səviyyəsinin aşağı salınmasını misal göstərə bilərik. Müharibə nəticəsində baş verən bu inflyasiyanı Çinli Sun Tzu belə təsvir etmişdi: "Ordu olduğu yerdə qiymətlər yüksəkdir; qiymətlər yüksəldikdə xalqın sərvəti tükənir" (Joshua S.G., 2003: s.1).

"Otuz İllik Müharibəyə" (1618-1648) diqqət yetirsək görərik ki, yaranmış olan aclıq və vəba, muzdlular tərəfindən mülki adamların qarət edilməsi və bunun kimi digər faktlar səbəbindən Almaniya öz əhalisinin müəyyən qismini öldürmüşdü.

Müharibə zamanı yaranmış olan hərbi zərurətin nəticəsi olaraq texnoloji inkişaf baş vermiş olur. Müharibə baş verən zaman müdafiə və digər məqsədlərə görə ixtira olunan cihazları münaqişələr bitdikdən sonra mülki məqsədlərə görə təkmilləşdirərək daha da inkişaf etdirirlər. Buna misal olaraq, İkinci Dünya müharibəsi ərəfəsində istehsal edilən radarı göstərə bilərik.

Sadalanmış olan yeniliklərin müsbət iqtisadi təsirləri olsa belə, digər sahələrə xərclənən eyni məbləğdə pulun daha böyük sayılan bir yenilik istehsalının mümkün olub-olmayacağı aydın deyildir. Ölkələr tərəfindən müharibəyə hazırlaşmaq və müharibə aparmaq iqtisadi və sosial rifahı pozmuş olur. Qeyd edilən məsələlərlə birgə müharibədən məğlub olaraq ayrılmaq ölkələrə daha pis təsir göstərmiş olur. Bunun əksi olaraq müharibədən qələbə ilə ayrılan tərəflər qarşı tərəfdən dəymiş olan zərərin bərpa edilməsinə görə kompensasiya şəklində vəsaitin ödənilməsini tələb edirlər.

İllər ərzində dünya ölkələri baş vermiş olan müharibələr ərazilər, resurslar, şəhərlər kimi xüsusi hesab olunan iqtisadi qaynaqlar üzərində baş vermişdir.

Dünya ölkələri arasında zamanla baş vermiş olan Soyuq Müharibə dövründə hərbi xərclərin yüksəlməsi Sovet İttifaqında iqtisadi durğunluğa, Şimali Koreyanın

dağılmasına bir növ səbəb olmuş oldu. XX əsrin 90-cı illərində dünyadakı hərbi xərclər bundan əvvəlki 100 illiyə nisbətdə üçdə bir qədər azalmışdır. Beləliklə, Amerika Birləşmiş Ştatları (ABŞ) və başqa inkişaf etmiş ölkələr də "sülh dividendini" əldə etmiş oldular (Joshua S.G., 2003).

Eyni zamanda təbii sərvətlərlə zəngin olan ölkəmiz işğalçı ölkələr tərəfindən dəfələrlə işğala məruz qalaraq müharibəyə cəlb edilmişdir. 1990-cı illərdə Azərbaycan iqtisadiyyatına dəyən böyük zərbə işğalçı ölkə ilə yaşanmış olan konfliktlər nəticəsində baş verdi. İşğal nəticəsində Azərbaycan öz ərazilərinin 20 faizini itirmiş oldu. Müharibənin nəticəsinə uyğun olaraq isə Türkiyə və Azərbaycan Ermənistanla sərhədləri bağladı və siyasi əlaqələri kəsdi (Cəfərova E. və başqaları, 2021).

Aparılan araşdırmalara diqqət yetirsək görə bilərik ki, 1985-1990-cı illər aralığında işğal olunmuş ərazilər böyük potensial imkanlara malik olmuşdurlar. Ölkə üzrə əkin sahələrinin və istehsalın müvafiq olaraq pambıq əkininin 5-6 faizini, istehsalın 4-5 faizini; taxıl əkininin 13-15 faizini, istehsalın 15-17 faizini; üzüm əkininin 25-26 faizini, istehsalın 25-27 faizini təşkil etmişdir. Regionda baş vermiş olan işğalçı siyasət, dağıntılar əkin sahələrinin və istehsal göstəricilərinin sürətli şəkildə azalmasına səbəb olmuşdur. 1992-ci ildə əldə olunan istehsal göstəriciləri 7 il əvvəlkilərlə müqayisədə hiss edilən dərəcədə aşağı enmişdir. Heyvandarlıq sahəsində də rəqəmlər yox dərəcəsi qədər aşağı enmişdir. 1994-cü ildən sonra isə demək olar ki, işğal olunan ərazilərdə kənd təsərrüfatı istehsalı aparılmamışdır (İbrahimov İ.H., 2021).

İşğaldan əvvəlki dövrlə müqayisədə ölkə iqtisadiyyatı itirilən ərazilərdəki müəssisələrin dayanması nəticəsində spirt, kartof, ət və süd istehsalı uyğun olaraq 41%, 46%, 18%, 34%-ni itirmiş oldu. Digər sektorlar üzrə istehsalın aşağı enməsi dövlətimizin ÜDM 60% aşağı enməsinə səbəb oldu. Sadalanan iqtisadi geriləmələrlə yanaşı dövlətimiz Naxçıvan Muxtar Respublikası (MR) ilə birləşdirən quru əlaqəsini də itirmiş oldu. Beləliklə, Naxçıvan MR mal və sərnişin daşımalarını İran üzərindən keçməklə hava və quru yollarından istifadə ilə həyata keçirməli oldu. Naxçıvan MR bir növ iqtisadi böhran yaşayan və bununla yanaşı dənizə çıxış imkanı olmayan

anklava çevrilmiş oldu. Ərazilərin işğal olunması səbəbi ilə həm də Azərbaycan Türkiyə dövləti ilə quru əlaqəsini itirdi.

İşğalın nəticəsi olaraq sadalanan problemlərin olmasına baxmayaraq regional ölkələrin birgə səyi nəticəsində beynəlxalq əhəmiyyətli olan Bakı – Tblisi – Ceyhan, Cənubi Qafqaz boru kəmərlərini və bunlarla birgə Bakı – Tblisi – Qars yeni dəmir yolu layihələri həyata keçirilmişdir (Cəfərova E. və başqaları, 2021).

Azad edilmiş ərazilərdə qeydə alınmış olan video görüntülərə nəzər yetirdikdə bir daha görmək olar ki, erməni vandalları əraziləri tamamən talan və yerlə yeksan etmişdilər (İbrahimov İ.H., 2021).

Ərazilər üzrə reabilitasiya işlərinin başlaması üçün lazım olan zaman müddəti təxmini olaraq bir və ya iki ilə bərabər götürülə bilər. Xüsusilə onu da nəzərə almaq lazımdır ki, bərpa müddətinin qısaldılması və ya uzaldılması maliyyə xərcləri baxımından xüsusi əhəmiyyət kəsb etmiş olur.

Potensial inflyasiya fərziyyəsi, müharibədən sonra aparılacaq olan yenidənbərpa prosesi üzrə maliyyə aspektlərinin inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir. Qeyd olunan bu fərziyyə həm inflyasiya proqnozlarına, həm də makroiqtisadi parametrlərə əsaslanmalıdır.

Məsələn, ölkəmizdə münaqişədən sonra aparılacaq olan yenidənqurma proqramı üzrə maliyyə xərcləri növbəti beş il üçün illik 18-20% inflyasiya əsasında müəyyən edilməlidir. Mərkəzi Bankın 2009-cu il üçün proqnozlaşdırılmış olan inflyasiya həddi belə olmuşdur. 2008-ci ilin sonundan başlayaraq isə inflyasiya müəyyən qədər məcmu tələbin azalmasına səbəb olan qlobal maliyyə-iqtisadi böhranın nəticəsi olaraq azalmışdır.

Bir sıra ölkələrdə bu əmsalların istifadəsi ilə layihələrin təhlili və qiymətləndirilməsi üçün məcburi prosedur hesab olunur. Azərbaycanda münaqişədən sonrakı bərpa prosesinə baxdıqda, deyilən amilin nəzərə alınması çətindir. Təəssüflər olsun ki, uzunmüddətli iqtisadi planlaşdırma üçün toplanan məlumatların istifadəsi yetərli hesab edilmir. Bununla belə, bəzi hallarda bu amil nəzərə alına bilər. Xüsusilə

müəyyən xərclər texniki və iqtisadi parametrlər əsasında hesablandıqda beynəlxalq məsləhətçilər tərəfindən hazırlanmış olan cari layihələrdə istifadə edilir.

Münaqişədən sonrakı bərpa işləri nə qədər gec başlamış olarsa və uzun zaman tələb edərsə, pulun vaxta görə dəyərinin aşağı enməsi və bununla inflyasiyanın son maliyyə parametrlərinə olan təsirinin daha güclü olmasına gətirib çıxardar.

Münaqişədən sonra aparılacaq olan reabilitasiya tədbirləri böyük vəsait tələb edir. Xüsusilə Azərbaycan kimi kiçik ölkələrdə lazım olan vəsaitin miqdarı ilə bütün iqtisadiyyatın ölçüsü müqayisə edilə bilər. Bunun üçün də ölkə olaraq xərclərin minimuma endirilməsi yenidənqurma üçün vacib bir simvoldur. Ölkəmizdə mövcud olan və yaxın gələcək üçün gözlənilən maliyyə imkanları sayəsində yüksək reabilitasiya məramına çatmaq kifayət hesab olunur (Muzaffarlı N. və Ismayılov E., 2009).

Xüsusi əhəmiyyətli sayılan Zəngəzur dəhlizinin açılması nəticəsində Türkiyə digər ölkələrin ərazilərindən keçmədən birbaşa Azərbaycana çıxış əldə edəcəkdir. Beləliklə, dəhliz sayəsində bərpa olunacaq yeni quru yol Bakı – Tblisi – Qars dəmir yol xətti ilə müqayisə olunduqda 340 km qısa olacaqdır. Bununla da, nəqliyyat məsafə və xərclərinin azalması dövlətimiz ilə Türkiyə arasında qarşılıqlı ticarətin yüksəlməsinə gətirib çıxardacaqdır. Daha geniş mənada dəyərləndirmiş olsaq, ərazilərin azad edilməsi və yeni dəhlizin açılması türk ölkələri arasında mövcud olan əlaqələr üçün inkişaf perspektivləri açacaqdır.

Münaqişənin bitməsi və Azərbaycan öz ərazi bütövlüyünün bərpa etməsindən sonra tam regional inteqrasiya üçün yeni imkanlar yaranmış oldu. Üçtərəfli Bəyanatda qeyd olunduğu kimi, artıq bölgədə olan iqtisadi və nəqliyyat əlaqələri tam olaraq bərpa olunacaqdır. Bəyanatın vacib sayılan elementlərindən biri isə Azərbaycan ilə Naxçıvan MR arasında olan nəqliyyat əlaqələrində xüsusi əhəmiyyətli sayılan Zəngəzur dəhlizinin bərpa olunmasıdır. Yeni qurulacaq olan dəhliz öz növbəsində Naxçıvan MR-nı iqtisadi blokadadan çıxaracaq, dövlətimizin iqtisadi inkişafı üçün daha yeni imkanlar yaradacaqdır.

Daha böyük çərçivədən baxsaq, Zəngəzur dəhlizinin qurulması qonşu ölkə olan Türkiyə üçün də Orta Asiyadakı türk ölkələri ilə əlaqənin ən alternativ yol kimi əhəmiyyətə malikdir. Bu kimi layihələrin reallaşması türk ölkələri arasında əlaqələrin daha da inkişafına şərait yaradacaqdır.

Yekun olaraq, bölgədə davamlı sülhə nail olmaqla azad olunan ərazilərə xarici investisiyaların cəlbinə şərait yaradılmış olacaqdır (Cəfərova E. və başqaları, 2021).

### 1.3. Müharibənin iqtisadi zərəri və postmüharibə dövrünün inkişaf istiqamətlərinin dünya təcrübəsi

Müharibə yeni başladığı vaxtdan artıq onun iqtisadi təsirləri yaranmağa başlayır. Yaranmış təhlükəni görən ölkələr iqtisadiyyatlarını müharibə planları üzrə qurarkən bir sıra tənzimləmələr həyata keçirirlər.

Müharibənin iqtisadi təsirlərinə:

- Psixoloji xərclər ;
- İşləyən əhali sayının azalması ;
- Məşğulluğun artması ;
- Milli borcun artması ;
- Səhiyyə xidməti üçün çəkilən xərclər ;
- Binaların zədələnməsim ;
- İnflyasiya ;
- Yeni texnologiyaların yaranması aiddir.

Müharibə baş verən illərdə dövlət büdcəsində formalaşmış olan gəlirlər müharibəyə cəlb olunur və bununla da büdcədən əhəmiyyətli xərcləmələrin yaranmasına səbəb olur. Xərclərin böyük bir qismini müdafiə xərcləri təşkil etmiş olur. Yaranmış olan vəziyyətlə əlaqədar turizm gəlirlərində azalma baş verdiyinə görə ölkə daha böyük xarici borc yükü ilə üz-üzə qalmış olur. Müharibə dövründə yaranmış olan maliyyə çatışmazlığını aradan qaldırmaq üçün ölkələr Mərkəzi Bankın resurslarına müraciət edirlər. Bunun nəticəsi olaraq isə inflyasiya qaçılmaz olur.

Müharibənin nəticəsi ilə yaranmış olan digər iqtisadi xərc olaraq, müharibənin vurduğu ziyanın aradan qaldırılmasına görə çəkilən xərcləri göstərə bilərik. Ərazilərin yenidənbərpası üçün çəkilən xərclər, sosial təminat üçün ayrılan xərclər də büdcədə əsas yer tutur.

Sadalanan xərclərin daha yaxşı müəyyən olunması üçün, müharibə olmasaydı, bu xərclər hara xərclənəcəkdi? sualına cavab tapmaq lazımdır. Çünki, bu xərclərin hər birinin alternativ dəyəri vardır. Misal olaraq, döyüş üçün lazım olan təyyarə və helikopterin alınmasına görə çəkilən xərclərin dəyəri, işləri dayandırılmış olan sənaye zonasının tikintisinin yekunlaşdırılmasına xərclənə bilərdi. Digər bir yanaşmada silah alışına çəkilən xərc hesabına məktəb tikintisi üçün ayrılacaq xərcləri əvəzləyə bilərdi. Belə olan zaman insan kapitalı üçün ödənilməli olan xərclərdən bir növ imtina edilmiş olur.

Müharibənin iqtisadi təsirlərindən biri də əmək qabiliyyətli əhali sayının azalmasıdır. İndiki dövrdə döyüş üsullarında ciddi şəkildə dəyişiklik olsa da, müharibə baş verən zaman hərbiçilərlə yanaşı mülki şəxslərin də həyatını itirdiyini görə bilərik. Müharibə şəraitində baş verənlər işsizliyin artması və istehlakın azalmasına gətirib çıxardır.

Müharibənin bir başqa iqtisadi təsiri milli borcun həcminin artmasıdır. Müharibə ərəfəsində vergidən daxil olmaların həcmi azaldığından, müharibə xərcləri borclanma hesabına qarşılanır.

Statistik göstəricilərə diqqət yetirsək, müharibə zamanı və sonra səhiyyə xərclərinin artdığını müəyyən edə bilərik. Buraya münaqişə nəticəsində yarananların müalicəsi, psixoloji təsirə məruz qalan şəxslərə qulluq və onların müalicəsi üçün çəkilən xərclər aid edilir. Müharibə zamanı səhiyyə sektorunda çox vəsait xərclənərək alınmış olan cihazların zədələnməsi nəticəsində yenilənməyə görə çəkilən xərclər də bu sahəyə dəymiş olan ziyan kimi qiymətləndirilir. Buna misal kimi ABŞ və Yaponiya müharibəsini göstərə bilərik. Belə ki, su və kanalizasiya infrastrukturuna

dəymiş olan ziyan xəstəliklərin və sağlamlıq üçün çəkilən xərclərin artmasının bir səbəbidir.

Qeyri-adekvatlıq nəticəsində yaranan inflyasiya, sərmaye çatışmazlığı, əmanətlərin faiz göstəricilərinin aşağı enməsi və bunun kimi bir çox misallar müharibənin doğurduğu iqtisadi problemlərdəndir (Karamızrak B. ve Karaca C., 2018).

İkinci Dünya Müharibəsi başa çatdıqdan sonra aparılan iqtisadi bərpa işləri dünya tarixində ən dağıdıcı münaqişədən sonra görülən tədbirlərlə əlamətdar oldu. Bir sıra ölkələr dəymiş olan ziyanı yenidən bərpa etmək üçün büdcədə yaranmış olan kəsirlərlə üz-üzə qaldılar.

1949-cu ildə sona çatmış olan “Vətəndaş Müharibəsi”-nin baş verdiyi Çin dövləti, XX əsrin 50-ci illərinin əvəllərinə qədər hiperinflyasiya ilə üzləşdi.

Birinci Dünya Müharibəsi başa çatandan sonra Qərbi Avropada istehsal həcminin əvvəlki səviyyəyə çatması üçün üç il, ixracat üzrə isə dörd il vaxt çəkdi. Qeyd edilənlərlə birgə, regionda adambaşına düşən ərzaq istehlakı 1950-ci ildə müharibədən əvvəlki səviyyəyə çatdı. Qlobal miqyasda digər istehsal sahələri ilə müqayisədə kənd təsərrüfatı istehsalı demək olarki daha yavaş bərpa olundu.

1947-ci ildən başlayaraq dünya sənaye istehsalının göstəriciləri öz əvvəlki səviyyəsinə varmış və beləliklə müharibədən sonrakı bərpa prosesi sürətlə həyata keçirilirdi. Ancaq Almaniya və Yaponiya ölkələri adambaşına düşən ÜDM əvvəlki göstəricilər səviyyəsində bərpa edə bilməmişdi. Bəhs edilən müharibənin təsirindən təsirlənməmiş ölkələrdə, istehsal göstəricilərinin əvvəlki səviyyədən daha da yüksəldiyi müşahidə olunmuşdur. Bu ölkələrə neytral olan Avropa ölkələrini, Hindistanı, Türkiyəni, Kanada və ABŞ kimi ölkələri misal göstərə bilərik. Elə dövlətlər də vardır ki, müharibəyə məruz qalan ölkələrin artan tələbatlarından faydalanırdılar. Qərbi Avropada isə bunun əksi olaraq idxalın əvəzlənməsi səbəbindən istehsal göstəricilərinin azaldığını görə bilərik (World Economic and Social Survey, 2017).

Dünya ölkələrinin təcrübəsinə görə müharibədən sonrakı yenidənbərpa prosesi üç məqama əsaslanır:

1. Yenidənqurma siyasəti iqtisadi inklüzivliyin əldə olunmasına istiqamətlənməlidir. İşsizliyin və bərabərsizliyin azalmasına nail olunmalıdır.
2. Dəyişmək və təkmilləşdirmək istiqamətində işlər aparılmalıdır. Ekstremal şəraitdə münaqişədən öncəki institusional quruluş tamamən aradan qaldırılmalıdır.
3. Təklif edilən iqtisadi islahatlar və siyasətlər sadalanan tələblərə uyğun aparılmalıdır.

Müharibə bitdikdən sonra aparılacaq olan yenidənqurma prosesi üçün münaqişə riskinin minimum səviyyəyə endirilməsinin və ölkələrin siyasi prioritetlərinin nəzərə alınması əsas şərtlərdəndir. Həmçinin bərpa zamanı məhsuldar investisiyalar da ərazilərə cəlb olunmalıdır (Makdisi S. və Soto R., 2020).

Bu dövr "Marşall Planı" və "Bretton Woods" pul sistemi olan beynəlxalq ödəniş sisteminin yaranması ilə yadda qalmış oldu. Bu plan Birləşmiş Ştatların cəhdi ilə yaradılan Avropaya yardım planı idi. Marşall Planının Qərbi Avropaya təsiri özünü məhsuldarlığın bərpasına nail olmaqda və sabit iqtisadi artım üçün beynəlxalq yardımın vacibliyində əks etdirir. Planın həyata keçirilməsi qarşıya qoyulmuş məqsədlərin uğurla reallaşdırılması üçün beynəlxalq əməkdaşlığın bir müsbət nümunəsi kimi qiymətləndirilir. Başqa bir tərəfdən baxdıqda, bəhs edilən dövrdə əmtəə qiymətlərindəki volatilliyin yüksək olması və bunun kimi digər problemlər hələ də həllini tapmamışdır.

Münaqişə bitdikdən sonra Almaniya və Yaponiya qarşılarına qoymuş olduqları məqsəd ilə qazandıqları uğur sübut etmiş oldu ki, istənilən ölkə müharibədən zərər görərsə sonradan atacaqları addımlarla özlərini dəyişdirə bilərlər. 1948-1951-ci illər aralığında həyata keçirilən "Marşall Planı" ən başlıcası Qərbi Avropa və Almaniyanın təkrar qurulmasında əsas rol oynamış oldu.

Marşall Planı, beynəlxalq yardımın ölkə strategiyalarına uyğun aparılan sosial-iqtisadi transformasiyanın köməyi ilə reallaşan uğurlu inkişafa dair aparılan əməkdaşlın bir nümunəsidir. Yaponiyaya edilmiş olan yardım 1946-1949-cu illər

aralığında ABŞ ixracatının 40.5% həcmini təşkil etmişdi. Marşall Planına uyğun edilən bu yardım ümumi milli gəlirin təqribən 1%-ni təşkil etmişdi. Bununla yanaşı, “Avropa Ödəniş İttifaqının” yaradılması ilə Qərbi Avropa üçün çoxtərəfli ticarətin yeni bir dövrü açılmış oldu (World Economic and Social Survey, 2017).

1944-cü ildə təşkil edilmiş “Bretton Woods” konfransında bəhs edilən ölkələrin bərpa edilməsi üçün böyük məbləğdə pul ayrılmışdır. Müharibədən sonrakı yenidənqurma işlərində Almaniya və Yaponiya oxşarlıq göstərdilər. Onlar ilk olaraq ölkələrində sosial və iqtisadi sahələr üzrə yenidənqurma işləri həyata keçirdilər. Dövlət Parlamentə və Nazirlər Kabinetinə məxsus olan səlahiyyətləri artırdı (Devarajan S. və Mottaghi L., 2017).

# II FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN İQTİSADİ ARTIM POTENSİALI

## 2.1. Azad olunmuş rayonların mineral xammal ehtiyatlarının əsas iqtisadi resurs və sərvət kimi əhəmiyyəti

İşğaldan azad edilmiş ərazilər zəngin təbii sərvətlərlə: qızıl, mərmər, əqiq, mineral sular və s. kimi ehtiyatların potensialına malikdir. Regionun yenidən bərpası üçün vacib olan tikinti materiallarından burada çınqıl, kərpic, mişar daşı kimi xammallar mövcuddur.

İşğaldan əvvəlki illərdə qeyd edilən regionda fəaliyyət göstərmiş sənaye sahələri ölkə iqtisadiyyatında əsas paya sahib olmuşdur (Manafov Q., 2021).

Bildiyimiz kimi ərazilərin işğal olunması həm də bir növ təbii ehtiyatların itirilməsi ilə nəticələndi. Bunun nəticəsi olaraq isə ölkə iqtisadiyyatına, azad edilmiş ərazilərə dəymiş olan cəmi zərərləri daha dəqiq hesablamaq üçün ilk olaraq təbii resursların növlərinə görə ayrı-ayrılıqda vurulmuş zərərləri müəyyən etmək lazımdır.

**Cədvəl 2: Müxtəlif təbii ehtiyatların növlərinə görə faydalı qazıntı yataqların istismarı nəticəsində yataqların xalis dəyəri və nəticədə yaranan itkilər**

| Sıra № | Təbii ehtiyatların növləri | Ehtiyat yataqlarının ümumi dəyəri Mln (manat) | Təbii ehtiyat yataqlarının xalis dəyəri Mln (manat) | Orta illik yaranan itkilər Mln (manat) | Cəmi itkilər Mln (manat) |
|---|---|---|---|---|---|
| **1.** | Filiz mənşəli faydalı qazıntılar | 10495.9 | 9991.6 | 286.5 | 7162.6 |
| **2.** | Qeyri-filiz mənşəli faydalı qazıntılar | 8041.3 | 5591.2 | 192.7 | 4818.1 |
| **3.** | Əlvan və bəzək daşları | 303.5 | 5591.2 | 7.03 | 175.8 |
| **4.** | Tikinti materialları | 64128.4 | 55342.8 | 1581.2 | 39530.6 |
| **5.** | Yeraltı - şirin və mineral sular | 22183.8 | 110889.2 | 1008.4 | 25208.9 |
| **Cəmi :** | 76896 mln manat | | | | |

**Mənbə:** Rasimzadə E.Ə., 2018: s.36

Ötən əsrin 50-90-cı illər aralığında faydalı qazıntı yataqlarında aparılan axtarış, qiymətləndirmə və kəşfiyyat işlərinə cəmi 5110.8mln manat xərc çəkilmişdir. Beləliklə, faydalı qazıntı yataqlarına vurulan ümumi zərər 82006.8 mln manat olmuşdur (Rasimzadə E.Ə., 2018).

Kiçik Qafqazda var olan Mehmana yataqlarında region üçün xüsusi əhəmiyyətli qiymətli və nadir hesab olunan faydalı qazıntı yataqları mövcuddur. Kəlbəcər rayonunda yerləşən Ağyataq və Şorbulaq yataqlarında isə sənaye sahəsi üçün xüsusi əhəmiyyətli sayılan civə ehtiyaları vardır.

Bütün sadalananlardan bir daha bu nəticəyə gələ bilərik ki, bu region böyük bir iqtisadi potensiala sahibdir. Azad olunan ərazilərdə sahibkarlığın inkişaf etdirilməsi ilə ÜDM həcmi və bununla yanaşı dövlət büdcəsinə vergi daxilolmaları da artmış olacaqdır (https://vergiler.az/news/news/10830.html).

Geri alınmış ərazilərdə yerləşən Zod-Söyüdlü yatağı respublika ərazisində yerləşən ən böyük qızıl yatağıdır. Sözügedən yataq Azərbaycan-Ermənistan sərhəddində yerləşir (mövcud yatağın 74 faizi yəni 219 hektarı Azərbaycan, 26 faizi isə işğalçı ölkə ərazisində yerləşir). Söyüdlü yatağında mövcud sənaye ehtiyyatlarının həcmi 112,5 ton-dur (İbrahimov R., 2021).

Erməni vandalları yataqdan qeyri-qanuni olaraq qızıl ehtiyatlarını mənimsəmişdirlər. Rusiya şirkəti olan "GeoPro Mining" Ltd-nin törəməsi olan "GPMGold" şirkəti 2007-ci ildən bəri Söyüdlü kəndində filiz hasilatını həyata keçirmişdi. Bu deyilənlərdən əvvəl isə Kanada şirkəti olan "Birinci Dynasty Mines" də qeyd olunan yataqda eyni fəaliyyətləri reallaşdırmaq üçün cəhd göstərmişdilər.

Zod-Söyüdlü yatağından "GPMGold" şirkətinin ümumi qızıl hasilatı 130.000 unsiyaya qədər olmuşdur. Bununla yanaşı ermənilər Kəlbəcərdə yerləşən, ümumi ehtiyatları təxmini 13 tondan yüksək olan Tutxun və Ağduzdağ kimi qızıl yataqlarını da mənimsəmişdirlər (https://vergiler.az/news/news/10830.html).

Bildiyimiz kimi azad olunan ərazilərdəki yataqların çox hissəsi işğalçı ölkə tərəfindən qeyri-qanuni olaraq istifadə edilmişdir. Bu məsələ ilə bağlı Azərbaycan

qarşı tərəfə təzminat tələbi qaldırmaq üçün beynəlxalq məhkəmələrə təqdim oluna biləcək dəymiş ümumi zərərin hesablanmasına görə beynəlxalq audit şirkətlərini ərazilərə dəvət etmək niyyətindədir (İbrahimov R., 2021).

Mövcud təbii resursları dövriyyəyə daxil etməklə Azərbaycan bu bölgənin inkişafına, metallurgiya kompleksinin və dağ-mədən sənayesinin yüksəlişini bərpa etmək potensialına malik olacaqdır. Ölkəmizdə metallurgiya sahəsinin inkişafı isə başqa sənaye sahələri ilə birgə hərbi sənaye sahəsinin də inkişafını sürətləndirəcəkdir.

"İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin" (İİTKM) şərhinə diqqət yetirsək, aşağıda göstərilən sxemdəki dəyərləndirməni görə bilərik.

**Sxem 3: Faydalı qazıntı yataqlarının istismarı aparıla bilər**




**Mənbə:** Rəşid L., 2020 məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir

Geri alınan ərazilərdə mövcud olan əlvan və tikinti materialları ərazilərdə yeni güclərin yaranmasına imkan yaradacaqdır. Bundan başqa, yüksək texnologiyalar üçün vacib sayılan nadir metalların bu ərazilərdə mövcud olması ilə əlaqədar geoloji işlər aparıla bilər (Rəşid L., 2020).

Bu ərazilərin təbii sərvətlərin zəngin olması və mövcud olan sərvətlərdən səmərəli şəkildə istifadə sayəsində ölkə iqtisadiyyatının daha da sürətli inkişafına səbəb ola bilər. Səmərəli istifadə yollarından biri də bu ərazilərdə sahibkarlıq fəaliyyətinin təşkil olunaraq inkişafına nail olmaqdır. Hesab olunur ki, azad olunan ərazilərdə sahibkarlıq fəaliyyətinin daha da səmərəli təşkil olunması üçün:

1. İlk olaraq dəqiq ərazidə hansı növ istehsal və xidmət müəssisələrinin qurulmasının vacibliyi, sahibkarlıq fəaliyyətində prioritet sahələr aşkar edilməlidir;
2. Kiçik və orta sahibkarlıq müəssisələrinin qurulması diqqət mərkəzinə çəkilməlidir;
3. Beləliklə, yaradılacaq sahibkarlıq strukturlarının mövcud bank kreditlərinə asan çıxışını həyata keçirmək üçün müvafiq tədbirlər reallaşdırılmalıdır, bununla bağlı xarici iri banklar ölkəmizə cəlb edilməlidir;
4. Yeni qurulacaq sahibkarlıq strukturlarında işləmək üçün əsas üstünlük bu ərazilərə qayıdacaq olan yerli sakinlərə verilməlidir.

Qeyd olunduğu kimi İAEƏ -miz sahibkarlığın formalaşması və inkişafı üçün əsas olan təbii sərvətlərlə zəngindir.

Geri alınan ərazilərdə olan resursların hasilatı və onların emalı məqsədi ilə, bununla yanaşı xidmət sahəsində önəmli olacaq sahibkarlıq strukturlarının yaradılması üçün lazımi qədər potensial imkanlar mövcuddur.

Qeyd olunan sahələrdə fəaliyyət göstərəcək olan strukturların yaradılmasında, ərazidəki mövcud imkanları və təbii ehtiyatları əsas götürülməklə, ilk olaraq ən önəmli sahələr müəyyən olunmalıdır.

**Cədvəl 3: Rayonlar üzrə prioritet istehsal sahələrinin seçilməsi uyğun hesab edilir**

| | |
|---|---|
| Laçın, Şuşa, Kəlbəcər, Zəngilan, Ağdam, Xocavənd, Qubadlı, Füzuli, Xocalı, Cəbrayıl | Tikinti materialları istehsalı |
| Zəngilan, Kəlbəcər | Qızıl istehsalı |
| Zəngilan | Mis istehsalı |
| Kəlbəcər, Laçın | Gümüş və civə istehsalı |

**Mənbə:** Aliyev R. və Mahmudova S., 2021 məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir

Qeyd olunanlarla yanaşı:

- informasiya texnologiyaları məhsullarına artan tələbi əsas tutaraq, Xankəndi, Ağdam və Şuşada informasiya əmtəələri istehsalı ilə məşğul olan sahibkarlıq

sahələrinin yaradılması və bu sahələr üzrə ixtisaslı xarici firmaların buraya gətirilməsi ilə birgə müəssisələrin qurulması;

- Azad edilmiş şəhərlərdə kənd təsərrüfatı məhsullarının emalı üçün tam müasir müəssisələrin qurulması;

- Yerli istehsal ilə müdafiə sənayesi məhsullarına olan tələbatı qarşılamaq üçün Şuşa və Ağdam ərazilərində tam müasir müəssisələrin yaradılması;

- Kənd təsərrüfatı sahəsində iri fermer təsərrüfatlarının yaradılması;

- Geri alınmış rayonların füsunkar təbiəti və tarixi abidələrlə zənginliyini əsas götürərək burada turizmin inkişafı üçün uyğun infrastrukturların qurulması da atılacaq addımlardan biri olardı (Aliyev R. və Mahmudova S., 2021).

Azad edilmiş ərazilərdə geoloji-kəşfiyyat işlərinin aparılmasının əsas önəmi, burada mövcud olan filiz və qeyri-filiz faydalı qazıntı yataqlarındakı ehtiyatların sənayedə perspektivliyinin qiymətləndirilməsidir (Hüseynova E.İ., 2021).

İşğaldan azad edilən ərazilərdə 155 faydalı qazıntı yatağı və beş qızıl yatağı mövcuddur (İbrahimov R., 2021).

**Şəkil 1: İşğal altında olmuş bölgələrdə faydalı qazıntı ehtiyatlarının yerləşməsi**




**Mənbə:** Rasimzadə E.Ə., 2018.:s.31

Şəkil 1-ə diqqət yetirsək, Azərbaycan ordusunun qələbəsi ilə geri alınan rayonlarda təbii resurs yataqlarının ərazilər üzrə bölgüsünü görə bilərik.

Zamanla işğal altında olmuş ərazilərdə mövcud olan təbii ehtiyatlara baxdıqda, ehtiyatların növləri və ümumi həcmini qeyd edilən cədvəldən daha ətraflı görmək olar.

**Cədvəl 4: İşğaldan azad edilmiş ərazilərin təbii ehtiyatların növləri və onların ümumi həcmi**

| Sıra № | **Təbii ehtiyatların növləri** | **Ehtiyatın ümumi həcmi** |
|---|---|---|
| 1. | Filiz mənşəli faydalı qazıntılar | 2414.67 min ton |
| 2. | Qeyri-filiz mənşəli faydalı qazıntılar | 173.2 milyon ton |
| 3. | Əlvan və bəzək daşları | 8.5 min ton,<br>1.1 min ton ($m^3$) |
| 4. | Tikinti materialları | 543.2 milyon $m^3$,<br>318.4 (ton) |
| 5. | Meşə ehtiyatları | 262535 ha |
| 6. | Yeraltı-şirin və mineral sular | 442.2 $m^3$/gün |

**Mənbə:** Rasimzadə E.Ə., 2018: s.34 məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir

İşğalçı ölkə tərəfindən bu ərazilərdəki təbii ehtiyatlarının ələ keçirilməsi ilə Azərbaycan iqtisadiyyatının xammal bazasına çox böyük zərbə vurulmuşdur.

XX əsrin 90-cı illərin sonuna yaxın olan müddətdə işğalçı ölkənin nümayəndələri həmin ərazilərdə məskunlaşan əhalinin maddi sərvətlərini talan edir, bundan sonra isə artıq onlar ərazilərdəki təbii ehtiyatları istismar etməyə başladılar.

Ermənistan tərəfindən qeyd olunan ərazilərdəki təbii sərvətlərin istismarı ölkə iqtisadiyyatının əsas gəlir mənbələrindən olmuşdur (Rasimzadə E., 2018).

Qarşıdakı illərdə ölkəmiz tərəfindən azad edilmiş ərazilərdə olan sənaye potensialından istifadə etməklə bir çox sənaye sahələrinin inkişafına imkan yaranmış olacaqdır. Geri alınan Yuxarı Qarabağ və digər iqtisadi rayon olan Kəlbəcər-Laçında

mövcud olan sənaye sahələrinin istehsalı 2 milyard manatdan artıq yüksələ bilər (Manafov Q., 2021).

"AzerGold" Qapalı Səhmdar Cəmiyyət (QSC) ilə birgə Azərbaycan Sənaye Korporasiyası (ASK) mövcud ehtiyyatların hasilatı və emalını reallaşdıra biləcək təcrübə və ən əsası investisiya imkanlarına sahibdir. Bununla, yeni təbii resursları dövriyyəyə daxil etməklə dövlətimiz qərb rayonlarının inkişafını, dağ-mədən sənayesinin və metallurgiya kompleksinin yüksəlişini təmin etmiş olacaqdır. Metallurgiya kompleksinin inkişafı isə ölkəmizdə bir çox sənaye sahələrinin və xüsusilə hərbi sənayenin inkişafını sürətləndirmiş olacaqdır.

Bununla da, illər ərzində işğal altında olmuş ərazilərimizin azad olunmasının nəticəsi olaraq zamanla qeyri-neft sektonunun inkişafına dair verilmiş olan proqnozları yenidən dəyərləndirmək lazım gəlir (Sadıqov E., 2021).

## 2.2. İşğaldan azad olunmuş ərazilərin zəngin qeyri-neft iqtisadi inkişaf potensialı

Ordumuz tərəfindən geri alınan ərazilər iri kənd təsərrüfatı regionu olmaqla Azərbaycan iqtisadiyyatında xüsusi paya sahibdir. Bu ərazilərdə kənd təsərrüfatı sahələrindən olan bitkiçilik və heyvandarlığın inkişafı üçün əlverişli torpaq-iqlim şəraiti mövcuddur (Fikrətzadə F.F. və Hacıyeva S.İ., 2020).

Dövlətimizin əraziləri erməni işğalçıları tərəfindən ələ keçirilməsinin nəticəsi olaraq əkin üçün yararlı torpaq sahələrinin 10% -dən çoxu itirilmişdir. Bunun nəticəsi olaraq isə ölkəmizin torpaq ehtiyatları azalmışdır. Digər tərəfdən, bu regionda yerləşən iqtisadi rayonların təbii və iqtisadi sərvətlərinin iqtisadi dövriyyədən çıxmasının nəticəsi olaraq ərazilərin iqtisadi-sosial inkişafı dayandı. İşğalın nəticəsi olaraq əkin sahələrinin 18faizi dövriyyədən çıxarılmışdır. Region üçün əhəmiyyətli sayılan 25-26% meşə torpaq sahəsi məhv edilmişdir.

Geri alınan ərazilər meyvə-tərəvəz, bitkiçilik və heyvandarlıq sahəsinin, bununla yanaşı qida və emal sənayesinin inkişafı üçün böyük potensiala sahibdir. Onuda qeyd

edək ki, Azərbaycan hal-hazırda 85 ölkəyə 30 növdə olan bitki qidası və qida məhsullarının ixracını həyata keçirir (Aliyeva A., 2020).

Azərbaycanın öz əzəli torpaqlarını işğal etməyi qarşılarına vəzifə kimi qoymuş olan erməni işğalçıları deyilənləri təkzib etsələr də, sovet hakimiyyəti illərində bu ərazilərdə yaşayan erməni əhalisinə dövlətimiz tərəfindən göstərilmiş olan qayğının nəticəsi olaraq yüksək inkişafa nail olmuşdurlar (Vəliyev A.H., 2020).

1980-cı illərdə qeyd edilən regionda yetişdirilən əsas bitkiçilik məhsulları istehsalına diqqət yetirsək görə bilərik ki, ölkə üzrə göstəricilərə görə taxıl istehsalı 13.9% , üzüm istehsalı üzrə isə 25.5%-nə sahib idi.

**Cədvəl 5: Bitkiçilik məhsullarının istehsalı, min ton (işğaldan əvvəlki dövr üçün)**

| | Taxıl isthsalı | Pambıq Istehsalı | Tütün Istehsalı | Kartof istehsalı | Tərəvəz istehsalı | Bostan məhsulları istehsalı | Meyvə və giləmeyvə istehsalı | Üzüm istehsalı |
|---|---|---|---|---|---|---|---|---|
| DQMV | 100.1 | - | 0.3 | 2.77 | 6.6 | 0.3 | 1.1 | 71.8 |
| Ağdam rayonu | 30.1 | 19.3 | - | 0.01 | 1.4 | 0.9 | 0.48 | 86.1 |
| Cəbrayıl rayonu | 20.1 | - | - | 0.01 | 0.5 | 0.3 | 0.03 | 42.0 |
| Füzuli Rayonnu | 31.9 | 1.5 | - | - | 0.6 | 0.5 | 0.05 | 100.8 |
| Kəlbəcər rayonu | - | - | 0.9 | - | - | | - | - |
| Qubadlı rayonu | 6.7 | - | 2.1 | 0.06 | 0.01 | 0.1 | 0.01 | 2.9 |
| Laçın rayonu | 3.0 | - | 0.1 | 0.05 | 0.4 | 0.02 | 0.02 | 0.0 |
| Zəngilan rayonu | 4.6 | - | 1.3 | 0.06 | 0.1 | 0.05 | 0.04 | 16.3 |
| Cəmi istehsal həcmi | 196.5 | 20.8 | 4.7 | 2.96 | 9.61 | 2.18 | 1.73 | 319.9 |
| Ölkə üzrə cəmi istehsal həcminə nisbət, % | 13.9 | 3.4 | 8.1 | 1.8 | 1.1 | 3.4 | 0.4 | 25.5 |

**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir https://www.stat.gov.az/ (1980)

Azad edilmiş ərazilər işğalçı ölkənin nəzarəti altında olan zaman onlar üçün səmərəsiz olsa da, işğaldan əvvəlki illərdə ölkəmizdə istehsal edilən kənd təsərrüfatı məhsulları üzrə təminat göstəricisi 35-40%-ə qədər olmuşdur. Misal olaraq, Qarabağ regionunda 250min hektardan çox əkin üçün yararlı torpaq sahəsi olsa da onların yalnız 7 faizindən yararlanılmışdır (Sadıqov E., 2021).

Ölkəmizin ərazilərinin azad edilməsi öz növbəsində ərzaq təhlükəsizliyinin təmin olunmasına da əhəmiyyətli töhvə verəcək və eyni zamanda heyvandarlıq məhsulları ilə özünü təmin etmə səviyyəsi yaxşılaşmış olacaqdır. Onu da qeyd etmək lazımdır ki, ölkəmizin özünü təmin etmə səviyyəsi süd və süd məhsullarına görə 86,2%, ət və ət məhsullarına görə 82,5%, taxılla təminat (çəltik istisna edilməklə) isə 70%-ə yaxın olmuşdur. İlkin proqnozlara görə qeyd olunan regionda iqtisadi fəaliyyətin bərpa olunması ilə Azərbaycan özünü bu məhsullarla tam təmin edə biləcəkdir. Ərazilərimizin işğalçılardan geri alınması digər sahələrdə olduğu kimi vəziyyəti burda da yaxşılaşdırmağa imkan yaradacaqdır (Aliyeva A.,2020).

**Cədvəl 6: Əsas növ ərzaq məhsullarının ehtiyatlarında idxal payı, %**

| | **2015** | **2016** | **2017** | **2018** | **2019** |
|---|---|---|---|---|---|
| **Dənli (çəltik daxil olmadan) və dənli paxlalılar** | 27.7 | 28.0 | 24.9 | 20.9 | 27.0 |
| **Buğda** | 35.1 | 37.4 | 31.3 | 27.7 | 36.0 |
| **Kartof** | 9.2 | 11.7 | 10.1 | 9.5 | 11.3 |
| **Bütün növ tərəvəzlər** | 2.8 | 4.0 | 2.8 | 2.1 | 2.0 |
| **Meyvə və giləmeyvə** | 7.4 | 9.3 | 9.0 | 11.5 | 10.9 |
| **Bütün növ ət və ət məhsulları** | 5.4 | 2.0 | 15.3 | 16.9 | 17.2 |
| **Süd və süd məhsulları** | 1 .9 | 12.4 | 14.5 | 13.7 | 15.3 |
| **Yumurta** | 0.3 | 1.2 | - | 1.1 | 0.1 |
| **Balıq və balıq məhsulları** | 21.5 | 17.8 | 18.7 | 16.8 | 17.7 |
| **Bitki yağları** | 50.8 | 60.4 | 57.9 | 60.2 | 61.4 |
| **Şəkər** | 14.1 | 11.3 | 35.6 | 15.2 | 22.1 |

**Mənbə:** Xeyirxəbərov İ., 2021: s.35

Cədvəl 6-ya diqqət yetirsək, taxıl məhsulları üzrə idxal payının çox yüksək olduğunu görə bilərik. Bu da öz növbəsində, ölkə əhalisinin istehlakında bu məhsulların idxal payı daha da yüksəlmiş olur. Yaranmış olan bu problemin səbəbi kimi, Azərbaycanda istehsal edilən ərzaq məhsulları üçün buğdanın keyfiyyət göstəricilərinin xüsusi tələblərə uyğun olmamasını göstərə bilərik.

Ölkəmizdə qurulmuş olan buğda ehtiyyatlarına və onun idxaldan asılılıq səviyyəsinə diqqət yetirsək, son beş il ərzində bu göstəricilərin dəyişdiyini görə bilərik. Beləki, 2015-ci il üzrə buğda ehtiyatları üzrə idxalın payı 35,1%, 2016-da bu göstərici artaraq 37,4%, 2017 və 2018-ci illərdə azalaraq müvafiq olaraq 31,3% və 27,7.%, son olaraq 2019-cu il üzrə isə artaraq 36% təşkil etmişdir.

2015-2019-cu illər arasında Azərbaycanın idxal etdiyi ərzaq məhsulları içərisində ümumi idxal olunan buğdanın həcmi ilə ondan birbaşa ərzaq üçün istifadə olunan hissəsi və bu məhsuldan ərzaq istehsalına görə istifadə edilən həcminin cəminə nisbəti 60 faizdən yüksək olmuşdur.

Bildiyimiz kimi, ölkənin taxılla təminat səviyyəsi ərzaq təhlükəsizliyinin təmin edilməsinin əsasıdır.

Yuxarıda qeyd olunan problemlərin səviyyəsinin azaldılması üçün dövlət tərəfindən bir sıra tədbirlər həyata keçirilir. Onu da qeyd etmək lazımdır ki, görülmüş və görülməkdə olan tədbirlərin nəticəsi kimi, 2014-2018-ci illərdə ölkəmizin buğda məhsulları üzrə idxal payı 45,9 faizdən 35,2 faizə qədər enmişdir. Bu göstəricilərin daha da aşağı endirilməsi ərzaq təhlükəsizliyinin təminatı üçün vacib olan şərtlərdən biridir. Ərazilərdəki 100 min hektara yaxın əkin sahəsini dövriyyəyə cəlb etmək üçün isə ilk növbədə, əraziləri minalardan tam təmizləmək lazımdır.

Ermənistanın kənd təsərrüfatı nazirinin dediklərinə nəzər yetirsək, ölkəmizin işğal edilmiş torpaqlarında vaxtı ilə istehsal edilən və daşınan taxılın ümumi miqdarı hər il müvafiq olaraq 150-200 min ton civarında olduğunun təsdiq edildiyini görə bilərik. Torpaqlarımızın geri alınması ölkəmizdə taxılın həcminin ən azı eyni qədər artımı deməkdir. Taxıl istehsalının artırılması bu məhsulun idxal göstəricilərinin 10%

və daha çox azalmasına və idxal prosesinin həyata keçirilməsi üçün xərclənən külli miqdarda valyuta itkisinin qarşısını almasına səbəb olacaqdır (Xeyirxəbərov İ., 2021).

Sxem 4-ə diqqət yetirsək ölkəmizin azad edilmiş ərazilərində kənd təsərrüfatının yenidən bərpası məsələləri göstərilən istiqamətlər üzrə qruplaşdırılmanı görə bilərik.

**Sxem 4: Azad olunmuş ərazilərdə kənd təsərrüfatı sahəsinin bərpası istiqamətləri**

- Torpaq və su resurslarının səmərəli istifadəsi üzrə planlamanın aparılması, bərpa tədbirlərinin görülməsi və torpaq islahatlarının aparılması
- Heyvandarlıq fermalarının qurulması
- Aqrotexniki xidmətlər, toxum, gübrə və pestisidlərlə təhizat bazasının yaradılması
- Məhsulların tədarükü və ticarəti üzrə logistika infrastrukturunun yaradılması
- Aqro-emal müəssisələrinin yaradılması
- Kənd təsərrüfatı mütəəssislərinin hazırlanmasl və informasiya-məsləhət xidmətinin təşkili
- Spesifik dövlət dəstəyi mexanizminin yaradılması

**Mənbə:** Fikrətzadə F.F. və Hacıyeva S İ.., 2020 məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir

"Özünəməşğulluq Proqramı" əsasında kiçik sahibkarlıq strukturlarına əhalinin cəlb olunması, dövlət vəsaiti əsasında güzəştlərin tətbiq edilməsi və s. bunun kimi tədbirlər əhalinin maddi vəziyyətini və həyat səviyyəsini yaxşılaşdırmağa kömək etməkdə davam edir (Aliyeva A.,2020).

Azad edilmiş ərazilərdə aqrar sektorun inkişafına nail olmaq üçün öz həllini tapmalı olan məsələlər aşağıdakılardır:

1. Aqrar istehsalın inkişafına nail olmaq üçün torpaqların münbit hala gətirilməsi;
2. Azad olunan torpaqlarda fermerlərə zəruri köməkliklərin göstərilməsi;
3. Şoran torpaqların yararlı hala gətirilərək istifadəsi üçün dövlət dəstəyinin göstərilməsi;
4. Yararsız hala salınmış torpaqların gübrələrlə təmin edilərək ərazilərdə məhsuldarlığın təmin edilməsi.

Uzun zaman ərzində işğal altında olmuş bu torpaqlarda aqrar istehsalın təmin edilməsinə dair ciddi texniki tələblər reallaşdırılmalıdır (Quliyev M.S., 2021).

### 2.3. Azad edilmiş ərazilərin canlanmasının iqtisadi aspektləri və investisiyaların sektorlar üzrə analizi

Öz əzəli torpaqlarını işğalçı ermənilərdən azad etməyə nail olan Azərbaycan öz şanlı tarixində unudulmaz dövrünü yaşamışdır. Geri alınan ərazilər dövlətimiz üçün çox zəngin iqtisadi potensiala və bununla yanaşı böyük investisiya imkanlarına sahibdir. Çox təəssüflər olsun ki, işğalçılıq dövründə bu regionda bütün infrastruktur dağıdılmış və ərazilərdə olan təbii sərvətlərimiz mənimsənilmişdir (Əliyeva T.Ə., 2022).

Regionun inkişafı özəl müəssisənin bölgəyə investisiya yatırması, yeni iş yerlərinin açılması və mövcud iş yerlərində istehsala başlaması ilə reallaşdırıla bilər. Odur ki, regionların inkişaf hədəfinə real nail olunması daha çox özəl sahibkarlığa veriləcək imkanların və stimulların davam etdirilməsindən asılıdır. Müəyyən olunacaq meyarlara uyğun olaraq müəyyən edilən regional coğrafiya əsasında regional və struktur problemlərə regional dəstək sistemi hazırlanmalı və müəyyən ediləcək prioritet əsaslara uyğun olaraq təşviqlər şaxələndirilməlidir. Təbii sərvətləri və turistik yerləri ilə zəngin olan rayon haqqında ümumi məlumat belədir.

Rayonun əsas əkinçilik və heyvandarlıq sahələri üzüm, buğda, meyvə, mal-qara və tütünçülükdür. Rayon üzüm istehsalı ilə diqqət çəkir. Yüksək dağlıq ərazilərdə ət, süd və yun üçün mal-qara yetişdirilir. İqtisadi rayonda eyni zamanda arıçılıq və

tutçuluq da inkişaf edir. Bölgənin təbii mədənlərinə qızıl, civə, mərmər, kopal, perlit və örtük tikinti daşları daxildir. Sənayenin əsas hissəsini qida, kiçik bir faizini yüngül sənaye təşkil edir və kənd təsərrüfatı məhsullarının emalına əsaslanır.

Azərbaycanın 14 milyard dollarlıq idxalında Rusiyadan sonra ikinci yerdə olan Türkiyə ölkəmizdə 12 milyard dollarlıq 363 layihəyə imza atıb. İki ölkənin hədəfi 2023-cü ilə qədər 5 milyard dollar olan ticarət həcmini 15 milyard dollara çatdırmaqdır. Azərbaycan 2020-ci ildə işğaldan azad edilən və yenidən ölkə ərazisinə birləşdirilən Dağlıq Qarabağ (keçmiş, hal-hazırda Qarabağ bölgəsinin tərkibi-T.) bölgəsinə sərmayə qoymaqla bu bölgəni yenidən yaşanabilir etməyi hədəfləyir.

Ermənistanın işğalından azad edilən və Azərbaycanın ərazi bütövlüyünün 20 faizini əhatə edən keçmiş Dağlıq Qarabağ və ətraf rayonlar hal-hazırda isə Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonları yenidən qurulacaq. Ölkədə tikinti sektoru ilə yanaşı, sənaye, kənd təsərrüfatı və xidmət sahələrində də investisiya imkanları mövcuddur. Türkiyə də işğaldan azad olunmuş Qarabağ və Şərgi Zəngəzur bölgəsinin bərpasına hazırlaşır. Mineral yanacaq istehsalının 8 dəfə artacağı regionda 1,5 milyon əhalinin məskunlaşacağı gözlənilir. Qarabağın yenidən bərpası üçün müəyyən edilmiş sektorlara 27 milyard dollarlıq investisiya proqramı nəzərdə tutulub.

Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi iki ölkə arasında iqtisadi əməkdaşlıq və investisiyalar üçün çoxlu imkanlar yaratdı. Torpaqların məhsuldarlığını, eləcə də xammal və təbii sərvətlərin zənginliyini nəzərə alsaq, yaxın gələcəkdə bu rayonlarda məhsul istehsalı təxminən 8 dəfə artacaqdır. Bundan əlavə, bu bölgə turizm baxımından çox önəmlidir. Azərbaycan bu ərazilərin yenidən yaşayış mühitinə çevrilməsi üçün qoyulacaq investisiyalarla bağlı dost ölkələrlə danışıqlar mərhələsindədir. Hələlik bu ölkələr müvafiq olaraq Türkiyə və İtaliyadır. İlk müqavilələr türk şirkətləri ilə imzalanıb. Türkiyənin 2020-ci ildə 44 günlük II Qarabağ (vətən) müharibəsində işğal olunmuş torpaqlarını geri qaytarmaq üçün Azərbaycana göstərdiyi siyasi və mənəvi yardımdan sonra iki ölkə arasında iqtisadi əlaqələrdə böyük irəliləyiş əldə olunub. Qarabağın və Şərgi Zəngəzurun yenidən

qurulmasında Kolin, Kalyon, Cengiz və Tekfen Holdinq kimi böyük yatırımların oynadığı mühüm rollar iki ölkə arasında ticarət həcminin sürətlə artmasına səbəb olub. Demirören Holdinq 2-ci Qarabağ müharibəsindən sonra Azərbaycana böyük sərmayələr qoyaraq iki ölkə arasında ticarət həcminin inkişafında mühüm rol oynayır.

Əhəmiyyətli problemlər qalmasına baxmayaraq, Azərbaycanda ümumi investisiya mühiti yaxşılaşmaqda davam edir. Azərbaycan hökuməti xarici sərmayələri cəlb etməyə, öz iqtisadiyyatını şaxələndirmək üçün islahatlar aparmağa və özəl sektorun rəhbərlik etdiyi artımı stimullaşdırmağa çalışır. Bununla belə, Azərbaycan iqtisadiyyatı neft və qaz hasilatından ciddi şəkildə asılı olaraq qalır ki, bu da ixrac gəlirlərinin təxminən 86 faizini və dövlət büdcəsinin yarıdan çoxunu təşkil edir. Pandemiya (COVİD-19) ilə əlaqədar karantin tədbirləri və qlobal xam neft qiymətlərinin azalması səbəbindən 2016-cı ildən bəri ilk dəfə real ÜDM 2020-ci ildə 4,3 faiz azalıb. Tarixən neft-qaz sektoru xarici investisiyaların ən böyük hissəsini cəlb etdiyi halda, Azərbaycan hökuməti iqtisadiyyatı şaxələndirmək üçün dörd qeyri-neft sektorunu hədəfləyib: kənd təsərrüfatı, turizm, informasiya və kommunikasiya texnologiyaları (İKT), və nəqliyyat/logistika. Biznes mühitinin yaxşılaşdırılması və ümumi iqtisadiyyatda islahatların aparılması üçün son illərdə görülən tədbirlərə artıq sahibkarlıq lisenziyası kateqoriyalarının ləğvi, məşhur “Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi (ASAN)”, dövlət xidmət mərkəzlərinin lisenziyalaşdırma səlahiyyətlərinin artırılması, gömrük prosedurlarının sadələşdirilməsi, bəzi biznes yoxlamalarının dayandırılması və vergi rejiminin islahatı daxildir (Əliyeva T.Ə., 2022: s. 162-166).

İllər ərzində erməni işğalçılarının əsarəti altında qalmış torpaqlarımızın geri alınması bu ərazilərdə biznesin inkişafının əldə olunması üçün yeni imkanlar açmış oldu. İAEƏ-də sahibkarlıq fəaliyyətində yüksəlişin əldə olunması ilə regionda özəl sahələrin bununla birgə biznes mühitinin daha səmərəli təşkil edilməsinin zəruriliyini diqqət mərkəzinə çəkəcəkdir.

Hal-hazırda ölkədə qeyri-neft sektorunda yüksəlişin əldə edilməsi aşağıda göstərilən amillər üçün vacib hesab olunur. Bu amillərə:

- Ölkənin ərzaq təhlükəsizliyinin tam təmin edilməsinə nail olmaq;
- Ərazilərdə biznesin inkişafı ilə regionda məskunlaşan əhalinin rifah halının yaxşılaşdırılmasını təmin etmək aiddir.

Bu sahə üzrə fəaliyyət göstərən dövlət qurumlarına azad edilmiş rayonlarda fərdi biznesini qurmaq istəyən çox sayda sahibkarların müraciətləri daxil olmuşdur.

Müharibədən sonraki yenidənquruculuq işlərinin həyata keçirilməsi ilə birgə geri alınan rayonlarda mövcud olan resursların və mövcud persektivləri əsas götürməklə bu rayonların inkişafına nail olunacaqdır (Əliyev A.N., 2021).

**Cədvəl 7: Azərbaycanın Dünya Bankının biznes hesabatındakı göstəricisi**

| | DB 2020 Rank | DB 2020 hesabatı | DB 2019 hesabatı | Hesabatdakı dəyişiklik |
|---|---|---|---|---|
| Ümumilikdə | 34 | 76.7 | 73.6 | 3.1 ↑ |
| Biznesə Başlamaq | 9 | 96.2 | 96.1 | 0.1 ↑ |
| Tikinti icazələri ilə məşğul olmaq | 59 | 73.4 | 73.1 | 0.3 ↑ |
| Elektrik alınması | 80 | 77.3 | 77.3 | ........ |
| Əmlakın qeydiyyatı | 44 | 75.4 | 72.2 | 3.2 ↑ |
| Kredit əldə etmək | 1 | 100 | 80.0 | 20 ↑ |
| Minoritar İnvestorların Müdafiəsi | 105 | 50.0 | 46.0 | 4 ↑ |
| Vergilərin ödənilməsi | 40 | 84.0 | 84.6 | 0.6 ↓ |
| Sərhədlərarası ticarət | 83 | 77,0 | 77,0 | ....... |
| Müqavilələrin icrası | 28 | 70.3 | 65.7 | 4.6 ↑ |
| Müflisləşmənin həlli | 47 | 63.5 | 63.8 | 0.3 ↓ |

**Mənbə:** The World Bank Group “Doing Business 2020”
https://www.worldbank.org/en/programs/business-enabling-environment

Dünya Bankının “Doing Business 2020” hesabatında Azərbaycanın yekun dərc olunmuş balı 78,5 olub və dünya üzrə 190 ölkə arasında 28-ci yerdə qərarlaşıb. Bu reytinq Azərbaycanı hesabata görə “ilk on islahatçı ölkə” sırasına daxil edib.

Biznes mühitinin inkişafı istiqamətində ciddi səylərə baxmayaraq, şaxələndirilmiş və rəqabətqabiliyyətli özəl sektorun yaradılması üçün tələb olunan struktur islahatlarında ləng irəliləyiş, həmçinin korrupsiya Azərbaycanda fəaliyyət

göstərən firmalar üçün əsas problem olaraq qalır. Hökumətlə əlaqəli holdinq şirkətlərinin kiçik bir qrupu iqtisadiyyatda dominantlıq edir, əqli mülkiyyət hüquqlarının müdafiəsi yaxşılaşır, lakin qeyri-kafi olaraq qalır və məhkəmə şəffaflığı yoxdur.

2020-ci ilin payızında Azərbaycan, Ermənistan və Dağlıq Qarabağ münaqişəsində intensiv döyüşlərə son qoyan Ermənistan, Azərbaycan və Rusiyanın üçtərəfli atəşkəs bəyannaməsi noyabr ayında açıqlandıqdan sonra Azərbaycan hökuməti keçmiş Dağlıq Qarabağ ətrafındakı ərazilərə yeni investisiyalar axtarır. Bu ərazilərin bərpası üçün müəyyən qədər vəsait ayrılmışdır. Bu vəsaitin mədəniyyət və tarixi abidələrin bərpası ilə yanaşı, yol infrastrukturunun, işıq, qaz, su, rabitə infrastrukturunun, təhsil və səhiyyə sahələrinin bərpasına yönəldiləcəyi bildirilir. Yenidənqurma işlərinin növbəti illərdə də davam edəcəyi gözlənilir. İşğaldan azad edilən bölgələrin yenidən qurulması və köçürülməsi üçün xüsusi büdcə ayırmalarının davamı ilə yanaşı, bu çərçivədə ərazilərin minalardan təmizlənməsi Azərbaycan hökumətinin prioriteti olaraq qalır.

Azərbaycan hökuməti birbaşa xarici investisiyaları fəal şəkildə axtarır. Azərbaycana birbaşa xarici sərmayə axını son illər, ilk növbədə, enerji sektoruna davamlı olaraq artıb. İqtisadiyyatın diversifikasiyası üçün hökumətin prioritet sektorlarına (kənd təsərrüfatı, nəqliyyat, turizm və İKT) xarici sərmayələr indiyədək məhdud olmuşdur.

Xarici investisiyalar “Xarici İnvestisiyaların Mühafizəsi haqqında”, “İnvestisiya fəaliyyəti haqqında” qanunlara uyğun olaraq tam və qeyd-şərtsiz hüquqi müdafiədən və beynəlxalq müqavilə və müqavilələrdə əks olunan təminatlardan istifadə edirlər. Bu qanunlara uyğun olaraq, Azərbaycan xarici investorlara, o cümlədən birgə müəssisələrdə fəaliyyət göstərən xarici tərəfdaşlara milli sərmayədarlara tətbiq edilən rejimdən az əlverişli olmayan qaydada davranır. Azərbaycanın “Xarici İnvestisiyaların Mühafizəsi haqqında” Qanunu xüsusi hallar istisna olmaqla, xarici investorları milliləşdirmə və rekvizisiyadan qoruyur.

Azərbaycanın investisiyaların təşviqinə cavabdeh olan əsas orqanı Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Agentliyidir (AzPromo). AzPromo 2003-cü ildə İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən qeyri-neft sektoruna xarici investisiyaların cəlb edilməsi və qeyri-neft ixracının stimullaşdırılması yolu ilə ölkənin iqtisadi inkişafına və diversifikasiyasına kömək etmək məqsədilə yaradılmış birgə dövlət-özəl təşəbbüsdür.

**Böyük layihələr**

Yaşıl Qarabağ. Müharibənin başa çatması ilə Qarabağda, eləcə də Kəlbəcər və Laçın rayonlarında 36 su elektrik stansiyasına nəzarət bərpa olundu. Azərbaycan Energetika Nazirliyinin Elektrik Enerjisi və Enerji Effektivliyi İdarəsinin hesabatına görə, müharibə başa çatdıqdan sonra Ermənistan silahlı qüvvələri geri çəkilərkən bir sıra elektrik stansiyalarını məhv edib.

Fevral ayında atəşkəs razılaşmasının əldə olunmasından cəmi üç ay sonra Laçın rayonunun Güləbird kəndində orta həcmli su elektrik stansiyası yenidən işə salınıb.

Elektrik stansiyasının böyük əhəmiyyəti var, çünki bərpa olunan enerji regionun inkişafı üçün böyük potensiala malikdir.

Yayda Tərtər rayonundakı digər iki orta ölçülü zavod – “Suqovuşan-1” və “Suqovuşan-2” yenidən işə salınıb. Zavodlar əvvəllər Ermənistanın “Artsax HEK” şirkətinə məxsus olub və müxtəlif adlarla, “Mataqis-1” və “Mataqis-2” adları ilə fəaliyyət göstərirdi.

Azərbaycanla İran arasında sərhəd kimi xidmət edən Araz çayı üzərində daha iki elektrik stansiyası – Xudafərin və Qız elektrik stansiyası tikilir. Bu zavodların tikintisi sovet hakimiyyəti dövründə başlamış, lakin 1993-cü ildə birinci Qarabağ müharibəsindən sonra bölgənin ermənilərin əlinə keçməsi ilə dayandırılmışdır. Buna baxmayaraq, İran çayın kənarında layihəni davam etdirdi.

2016-cı ildə Azərbaycan və İran elektrik stansiyalarının tikintisinin davam etdirilməsi ilə bağlı razılığa gəliblər, baxmayaraq ki, o zaman Bakı əraziyə nəzarət

etmirdi. Hazırda elektrik stansiyalarının 2024-cü ildə enerji istehsalına başlaması gözlənilir, hasilat Tehran və Bakı arasında bərabər bölünəcək.

Azərbaycan hökuməti su elektrik stansiyalarından başqa, külək və günəş enerjisi qurğuları tikməyi və Qarabağı özünün "yaşıl enerji zonası" adlandırdığı yerə çevirməyi planlaşdırır. Beləliklə, Qarabağ regionunda elektrik enerjisi tamamilə yaşıl enerji mənbələri hesabına istehsal olunacaq.

"Ağıllı kəndlər". Azərbaycan hökuməti indi öz vətəndaşlarını müharibə zamanı geri aldığı əraziyə yerləşdirməyə hazırlaşır, yüz minlərlə məcburi köçkünü yerləşdirəcək "ağıllı kəndlər" qurmaq istəyir. Ağıllı kənd bütöv kənd inkişafına yönəlmiş bir konsepsiyadır və müasir avtomatlaşdırma texnologiyalarından və bərpa olunan enerjidən istifadə etməklə iqtisadi inkişafı maksimuma çatdırmağa yönəlmiş kiçik icmaları nəzərdə tutur.

Hökumət həmçinin işğaldan azad olunmuş ərazilərin yenidən abadlaşdırılmasını daha da sürətləndirmək üçün irimiqyaslı, dövlət tərəfindən subsidiyalaşdırılan aqrobiznes müəssisələrini, yəni "aqroparklar" sistemini genişləndirməyi planlaşdırır.

Azərbaycan insan əməyini əhəmiyyətli dərəcədə azaldacaq avtomatlaşdırmanın tətbiqi ilə bağlı bəyanatına istinad edərək, ağıllı kənd konsepsiyasını geniş şəkildə təbliğ edir. Yaşıl və alternativ enerji və ağıllı idarəetmə sistemindən istifadə etməklə ağıllı kəndlərin həyata keçiriləcəyi planlaşdırılır və bununla da kəndlər ağıllı təsərrüfatlarla əhatə olunacaq.

Ağdam sənaye parkı, Zəngilan və Füzuli rayonlarında ağıllı kəndlər, Zəngilan, Kəlbəcər, Ağdam rayonlarında qiymətli metallar və tikinti materialları istehsalı layihələri planlaşdırma və inkişaf mərhələsindədir, onların regionun ümumi iqtisadiyyatına reinteqrasiyasında mühüm əhəmiyyət kəsb edəcəyi gözlənilir.

Füzuli Beynəlxalq Hava Limanı kimi iri infrastruktur layihələrinin bir qismi başa çatıb. Bundan başqa, bölgədə işğaldan azad edilmiş əraziləri yaxınlıqdakı şəhərlərlə birləşdirən 650 kilometr (404 mil) yol çəkilib.

Azərbaycanın şanlı qələbəsindən sonra regionda yeni geosiyasi reallıqlar üzə çıxdı. Qarabağın və ətraf rayonların işğaldan azad edilməsi regiona sabitlik gətirdi, iqtisadi potensialdan istifadə etmək və xarici sərmayələri cəlb etmək üçün müvafiq mühiti təmin etdi. Türkiyə, İtaliya, Böyük Britaniya, İsrail, Rusiya və Azərbaycanın digər strateji tərəfdaşları həyata keçirilən layihələrdə iştiraka böyük maraq göstərirlər. Türk şirkətləri Azərbaycanda Qarabağ bölgəsinin yenidən qurulması layihələrində ən böyük payı öz üzərinə götürüblər. Ümumilikdə işğaldan azad edilmiş sərhəd bölgəsində investisiya layihələri üçün 283 xarici şirkət iştirak edir. Yenidənqurma başlamazdan əvvəl ərazi minalardan təmizlənmə prosesindən keçməlidir və bu proses davam edir. Azərbaycan hökuməti 2021-ci ildə regionun yenidən qurulması üçün 1,3 milyard dollar vəsait ayırıb və 2022-ci ildə də eyni məbləğin ayrılması gözlənilir.

Türkiyəli podratçılar Azərbaycanda ümumi dəyəri 15,4 milyard dollar olan 455 layihədə iştirak ediblər. Azərbaycan Türkiyəyə 19 milyard dollara yaxın sərmayə qoyub, Türkiyənin Azərbaycana sərmayələri isə 12 milyard dollar təşkil edib. Şuşa bəyannaməsi, güzəştli ticarət sazişi, vizasız səyahət, Azərbaycan və Türkiyənin dövlət qurumları və şirkətləri arasında imzalanan sazişlər ticarət və investisiya əlaqələrinin sürətlə inkişafını təmin edir. Bu sövdələşmələr illik ticarət həcminin 15 milyard dollara çatması hədəfinə töhfə verəcək. Bu hədəfin üçdə birinə nail olunub. Qarşıdakı dövrdə Qarabağa qoyulan investisiya potensialı ilə hədəfə çatmaq planlaşdırılır. 2021-ci ildə əldə edilmiş razılaşmalar və mövcud qardaşlıq əlaqələri 2022-ci ildə ticarət və investisiya əlaqələrinin daha da möhkəmlənməsini təmin edir.

**İnvestisiya təşviqləri**

2016-cı ilin əvvəlindən Azərbaycan hökuməti ümumi iqtisadi islahatlar və iqtisadiyyatın şaxələndirilməsi səyləri çərçivəsində qeyri-neft ixracı sahələrində sahibkarlar və hüquqi şəxslər üçün vergi və investisiya güzəştləri tətbiq edib. Bu güzəştlərə qismən, müvəqqəti, korporativ və əmlak vergilərindən azadolmalar daxildir; istehsal obyektləri və istehsal avadanlıqlarının idxalı üçün əlverişli vergi rejimi; və müəyyən ixraca subsidiyalar. İnvestisiya sertifikatı sahibləri idxal olunan

maşın, avadanlıq və qurğulara görə hesablanmış mənfəət vergisinin 50 faizini, torpaq vergisinin 100 faizini, gömrük rüsumlarının 100 faizini ödəməkdən azaddırlar. Prioritet qeyri-neft sektoru üzrə layihələrə yeddi il müddətinə sertifikatlar verilir (Əliyeva T.Ə., 2022: s. 162-166).

Ölkə başçısının 2021-ci il 28 may tarixində imzaladığı 1347 fərmanına görə aşağıda göstərilən müddəalar nəzərə alınaraq Ağdamda Ağdam Sənaye Parkı yaradılmışdır.

Nəzərə alınan müddəalara:

- ərazilərdə yenidənbərpa işlərinin uğurlu bir şəkildə həyata keçirilməsi;
- dayanıqlı məskunlaşma üçün rəqabətqabiliyyətli və dayanıqlı iqtisadiyyatın yaradılması;
- göstərilən sahədə dövlət-özəl təşkilatların birgə fəaliyyəti aiddir.

Hal-hazırda bu parkda zəruri infrastrukturun yaradılması üçün işlər aparılır (Əliyeva T.Ə., 2022). Hazırda dövlət tərəfindən müəyyən edilmiş yeddi sənaye və ya texnoloji parkdan birində sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslər 2023-cü ilə qədər gəlir vergisindən, əmlak vergisindən, torpaq vergisindən, idxal olunan maşın və avadanlıqlara görə ƏDV-dən azaddırlar.

Azərbaycan layihəyə 1,3 milyard ABŞ dolları sərmayə qoymağı planlaşdırsa da, layihənin səmərəli həyata keçirilməsi üçün bir sıra problemlər mövcuddur. Layihələrin uğurunu əngəlləyə biləcək iki əsas potensial təhlükə var: hərtərəfli infrastrukturun olmaması və geniş idarəetmənin pozulması. Həmçinin xərc də bir problemdir, ona görə də hökumət xarici kapitalın cəlb edilməsində bu qədər fəaldır.

Azərbaycan hökuməti ən azı öz bəyannamələrində şəffaflığı artırmaq, korrupsiya və lazımsız xərcləri aradan qaldırmaq niyyətindədir. 2020-ci ilin avqustunda yaradılmış Azərbaycan İnvestisiya Holdinq hazırda ölkənin ən iri dövlət müəssisələrinin, o cümlədən enerji nəhəngləri SOCAR, AZAL, Azərenerjinin biznes proseslərinə və satınalmalarına yenidən baxır. Bu dövlət müəssisələri Qarabağın yenidən qurulmasında əsas rol oynamağa borcludurlar, ona görə də ictimai əmlaka

qarşı yanlış rəftarın minimuma endirilməsi və idarəetmə bacarıqlarının artırılması çox vacibdir (Əliyeva T.Ə., 2022: s. 162-166).

**Cədvəl 8: Azərbaycanın Birbaşa Xarici İnvestisiyalar (BXİ) üzrə göstəriciləri (milyon dollar)**

| | | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2019-2020 artım tempi, % |
|---|---|---|---|---|---|---|---|
| BXİ axınları | Daxili | 4500 | 2867 | 1403 | 1504 | 507 | -66.3 |
| | Xarici | 2574 | 2564 | 1761 | 2432 | 825 | -66.1 |
| BXİ səhmləri | Daxili | 26416 | 29283 | 30792 | 32280 | 32787 | 1.6 |
| | Xarici | 19314 | 22072 | 23618 | 25825 | 26825 | 3.9 |

**Mənbə:** World Investment Report 2021
https://unctad.org/topic/investment/world-investment-report

Cədvəl 8-də əks olunan göstəricilərə nəzər saldıqda, "Dünya İnvestisiya Hesabatı 2021"-də Azərbaycanın BXİ üzrə 2020 ci ildə artım göstəricisinin 2019-ci ilə nisbətdə -66,3% azaldığını görmək olar.

# III FƏSİL. AZAD OLUNMUŞ RAYONLARIN BƏRPASININ İQTİSADİ İNKİŞAFA VƏ ÜDM GÖSTƏRİCİLƏRİNƏ TƏSİRİ

## 3.1. İşğaldan azad olunmuş rayonların bərpası və yeni iş yerlərinin yaradılması

Ölkəmizin şanlı qələbəsinin qazanılmasında xüsusi rol oynamış II Qarabağ müharibəsi, münaqişə zamanı ölkəmizə vurulmuş olan ziyan miqdarının yüksək olduğunu bir daha sübut etmiş oldu. Bu rəqəmlərə, işğaldan əvvəlki illərdə Qarabağ ərazisindən fəaliyyət göstərmiş müəssisələrin yerlə yeksan olunması ilə qazanıla bilinməyən gəlir və mənfəətləri də daxil edə bilərik (Manafov Q., 2021).

Dünya ölkələrində zamanla baş vermiş müharibələrə nəzər yetirsək, müharibənin bitməsi ilə ərazilərdə aparılacaq olan yenidənbərpa işləri üçün kifayət qədər vaxta və vəsaitə ehtiyac yarandığını görə bilərik (Kaşiyeva F., 2021).

Parlaq qələbədən sonra görüləcək işlərə azad olunan rayonların bərpa edilməsi, regiondakı mövcud iqtisadi potensialdan ölkə iqtisadiyyatının inkişafı üçün düzgün istifadə olunması aiddir. Bu ərazilərimiz yalnız təbii sərvətləri və münbit torpaqları ilə deyil, həm də öz tarixi keçmişi ilə məşhurdur. Bütün bu sadalanan potensiallara sahib olan regionumuz ölkə iqtisadiyyatına çoxlu sayda dividend qazandıracaqdır (Məmmədova A., 2022).

Geri alınan ərazilərimizin yenidənqurulması üçün görüləcək olan işlərdən biri də şəhər və kəndlərin əsaslı yenidən qurulmasıdır. İlkin araşdırmalar nəticəsində, ərazilərdə 9 mindən çox evə ziyan vurulduğu müəyyən olunub. Dövlətin dəstəyi ilə dağıdılmış kiçik kəndlərin əvəzinə böyük kəndlərin qurulması nəzərdə tutulur. Bu istiqamət üzrə yenidənbərpa işlərinin aparılması həm səmərəliliyin əldə olunmasına, həm də xərcləri optimallaşdırmağa kömək etmiş olur. Kəndlərlə yanaşı şəhərlərin də bu istiqamətdə bərpası üçün baş planlar hazırlanmışdır.

Dağıdılmış şəhər və kəndlərin bərpası üçün ölkə tərəfindən “Ağıllı şəhər”, “Ağıllı kənd” konsepsiyalarından istifadə olunacaqdır. Konsepsiyanın məqsədi

yenidənqurma prosesində yüksək səviyyəli texnologiyalardan istifadə etməkdir. Bu regionun yenidən qurulmasında əldə olunan təcrübə zamanla digər şəhər və kəndlərimizə də tətbiq ediləcəkdir (Bağırov O., 2020).

Lakin azad olunan ərazilərimizin demək olar ki bir qismi dağlıq relyefə sahibdir. Bu rayonların bərpa edilməsi üçün isə ilk olaraq rayonlar arası yol infrastrukturu yenidən qurulmalıdır. Bu ərazilərimizdə bərpa işləri aparılan zaman turizm baxımından cəlbediciliyi də nəzərə alınmalıdır. Qeyd edilən bərpa işləri aparılan zaman Avropa ölkələrindən olan İsveçrənin şəhərsalma planlarından da yararlanmaq daha faydalı olardı (Məmmədova A., 2022).

Ərazilərdə bərpa işlərinin aparılmasına yerli şirkətlərlə yanaşı xarici şirkətlər də xüsusi maraq göstərir. Bununla yanaşı artıq bir sıra şirkətlər öz təkliflərini önə sürmüşdülər. Prezidentimizin dediyi kimi, müharibə baş verən zaman ölkəmizə dəstək olmuş və dostluq nümayiş etdirmiş ölkələrin şirkətləri ərazilərin bərpası işlərinə cəlb ediləcəkdir. Bu ölkələrdən ən birincisi isə qardaş ölkə olan Türkiyədir. Hansı ki, müharibə dövründə dövlətimizə ən böyük dəstək verən bu ölkə olmuşdur.

**Sxem 5: Türkiyə şirkətlərinin iştirak etdiyi layihələr**




**Mənbə:** Bağırov O., 2020: s.7-8 məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir

II Qarabağ müharibəsi başa çatdıqdan sonra ölkə başçısı regionun bərpası və dirçəldilməsi üçün vacib tapşırıqlar toplusu hazırladı. Verilən göstərişlərə uyğun olaraq ərazilərdə ilkin addımlar atıldı. Bunlara aiddir:

- Xüsusi əhəmiyyətə sahib olan Qarabağ Dirçəliş Fondunun yaradılması;
- Füzuli-Şuşa magistral yolunun qurulması;
- Beynəlxalq əhəmiyyətli Füzuli aeroportunun tikilməsi (Məmmədova A., 2022).

Ölkə başçısının imzaladığı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" haqqında 2021-ci il 2 fevral tarixli sərəncamına diqqət yetirsək, ölkəmizdə qarşıdakı on il ərzində aşağıda sadalanmış olan Milli Prioritetləri həyata keçirməsinin qeyd olunğunu görə bilərik:

**Sxem 6: "Azərbaycan 2030: sosial iqtisadi inkişafa dair Milli Prioritetlər" haqqında 2021-ci il 2 fevral tarixli sərəncamına əsasən reallaşdırılmalı olan məsələlər**




**Mənbə:** https://president.az/az/articles/view/50474 məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir

Prezidentimiz tərəfindən 7 iyul 2021-ci il tarixində imzalanan fərmanla iqtisadi rayonlarımızın yenidən bölgüsü təsdiqləndi. Belə ki, mövcud olan iqtisadi rayonlar və azad edilən rayonları da nəzərə alaraq 10 iqtisadi rayon 14 iqtisadi rayonla əvəzləndi. İmzalanan sənədə uyğun olaraq geri alınan ərazilərin bərpası və məcburi köçkün olan

vətəndaşlarımızın doğma el-obalarına qayıtmasının tezliklə reallaşdırılması üçün xüsusi tədbirlər qeyd olunmuşdur.

Dövlətimiz yeni yaradılan iqtisadi rayonların hərtərəfli inkişafına nail olmaqla həm də bir növ ölkə əhalisinin rifah səviyyəsinin artmasını təmin etmiş olacaqdır (Məmmədova A., 2022).

Geri alınan ərazilərin iqtisadi potensialını reallaşdırmaq məqsədi ilə ilk olaraq ərazilərdə nəqliyyat şəbəkələri qurulmalıdır. Bunun üçün ərazilərin yenidənbərpası proqramında qeyd olunan məsələ istiqamətlərdən biri kimi göstərilmişdir (Qocayev N., 2022).

**Şəkil 2: Qarabağ və Şərqi Zəngəzur: əsas avtomagistral yollar**




**Mənbə:** Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi https://ereforms.gov.az/az/video-icmal/azerbaycanin-qarabag-ve-serqi-zengezur-iqtisadi-rayonlari-86 (2021)

Xüsusi əhəmiyyətli sayılan, Şuşa şəhərinə Füzuli rayonundan çəkilən Zəfər Yolunu bu ərazilərə Böyük Qayıdışın başlanğıcı kimi adlandıra bilərik. Bu yolun uzunluğu 101km-dir. Zəfər yolu Qarabağ üçün əhəmiyyətli sayılan Şuşa şəhərinin yenidənbərpasında önəmli rol oynamaqla yanaşı, həmçinin bu regionada yeni həyatın canlanması üçün xüsusi əhəmiyyətə sahib olacaqdır.

**Şəkil 3: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında dəmiryol xətləri və hava limanları**




**Mənbə:** Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi https://ereforms.gov.az/az/video-icmal/azerbaycanin-qarabag-ve-serqi-zengezur-iqtisadi-rayonlari-86 (2021)

Ərazilərdə icrası reallaşan dəmir yollar şəbəkəsi və hava yolları bizə qonşu olan ölkələrlə əlaqələrin yenidən bərpa olunmasına gətirib çıxaracaqdır. Bununla yeni iqtisadi rayonlarımız olan Qarabağ və Şərqi Zəngəzurun inkişafı sürətlənəcəkdir. Füzuli rayonunda istifadəyə verilmiş beynəlxalq Füzuli Aeroportu həm də Böyük Qayıdış Hərəkatının Qoşa qanadıdır. Bu Beynəlxalq Hava Limanı regionda turizmin inkişafına nail olmaq üçün uğurlu xidmət edəcəkdir. Onuda qeyd etməliyik ki, bəhs olunan bu aeroport Qarabağ ərazisində çox az müddət ərzində salınmış birinci Hava Limanıdır.

Ölkə başçısının təməllərini qoyduğu magistral yol şəbəkələri, yaşayış məskənləri, dəmir yolları, hava limanları azad olunan rayonların inkişafına xidmət edəcəkdir. Qarabağda müasir həyatın qurulması üçün yaradılacaq olan Sənaye Parkı, Cəbrayıl rayonunda yaradılacaq Araz Vadisi İqtisadi Zonası və “Kamaz Regional Xidmət Mərkəzi” də xüsusi olaraq qeyd olunmalıdır. Yeni qurulacaq olan xidmət sahələri regionda yeni iş yerlərinin açılması deməkdir. Bununla yanaşı bu rayonlarda

yeni məktəblərin, əhali üçün əhəmiyyətli olan mərkəzi xəstəxanaların təməllərinin qoyulması regionda sosial infrastruktur sahələrinin yaradılmasına xüsusi önəm verildiyinin bariz nümunəsidir (https://science.gov.az/az/news/open/18420).

Azad olunan ərazilərdə həyata keçiriləcək bərpa işlərinin başlanğıcı Şuşa şəhəri olmuşdur. Zamanla işğalçılar tərəfindən dağıdılan bu şəhər Azərbaycan üçün böyük əhəmiyyətə sahibdir. Öz əməllərindən əl çəkməyən ermənilər şəhərimizin adında dəyişiklik edib tarixi faktları gizlətməyə çalışsalar da, Şuşa şəhərini dünya ictimaiyyətinə erməni şəhəri kimi tanıda bilmədilər. İşğaldan əvvəlki illərdə Şuşa şəhərində erməni əhalisi yox idi (Hüseynzadə S., 2022).

Bildiyimiz kimi, münaqişə başa çatdıqdan sonra görülməli olan işlərdən biri azad edilən rayonların sosial-məişət şəraitinin yaxşılaşdırılmasıdır. Bu ərazilərə mərhələli şəkildə köçürüləcək olan əhalinin işlə təmin olunması üçün tədbirlər görülməkdədir (Əkbərov M., 2021).

Bu regionda sabitliyin, ölkələr arasında faydalı əməkdaşlığın və ticarət münasibətlərinin artması ölkədə region iqtisadiyyatının rolunun daha da möhkəmlənməsinə gətirib çıxaracaqdır.

Dövlətimiz əhalinin rifahını artırmaq məqsədi ilə sosialyönümlü bazar iqtisadiyyatı olan inkişaf yolunu seçmişdir (https://president.az/az/articles/view/50474).

Milli Məclisin deputatı iqtisadçı alim Vüqar Bayramov da Qarabağda qurulacaq olan infrastruktur layihələrinə münasibətini bildirmişdir. O, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan yol infrastrukturunun yenidən qurulması işlərinin tam sürətlə getdiyini qeyd edib. Dövlətimiz üçün xüsusi əhəmiyyətə sahib Zəngəzur nəqliyyat dəhlizinin hissəsi olan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi aparılır. Hal-hazırda reallaşdırılan infrastruktur layihələrinin regionda yeni iş yerlərinin qurulmasında böyük önəm daşıdığını qeyd edib. Deyilənlərə misal olaraq Füzuli aeroportunu qeyd edən Vüqar Bayramov, layihənin icrası prosesinə 500 Azərbaycan vətəndaşının cəlb olunduğunu diqqətə çatdırıb.

Qarşıdakı illərdə bu region məşğulluğun təmin olunmasında böyük paya sahib olacaqdır. Quruculuq və bərpa işləri yekunlaşdıqdan sonra azad olunmuş ərazilərimiz ölkə iqtisadiyyatını minimum 8 faiz həcmində formalaşdırmaq potensialı anlamına gəlir və bu illik 5 mlrd manatdan artıq vəsaitin formalaşması deməkdir. Bu sadalananlardan bu nəticəyə gələ bilərik ki, gələcəkdə Qarabağda yaradılacaq olan yeni iş yerlərinin sayı 10 minlərlə olacaqdır deyə vurğulanıb (https://xalqqazeti.com/mobile/az/83898).

Kəlbəcər-Laçın iqtisadi rayonunun sosial-iqtisadi göstəricilərinə, bu iqtisadi rayona aid olan rayonlardakı müəssisə və təşkilatların, yeni açılan iş yerlərinin sayına və bunun kimi digər nüanslara aşağıda əks olunan cədvəldən baxa bilərik.

**Cədvəl 9: Kəlbəcər-Laçın iqtisadi rayonu (sosial-iqtisadi göstəricilər)**

| | |
|---|---|
| **Sənaye məhsullarının (işlərin, xidmətlərin) həcmi** | 0.7 mln. manat |
| **İnformasiya , nəqliyyat xidmətlərinin həcmi** | - |
| **Əsas kapitala yönəldilən investisiyaların həcmi** | 21.5mln. manat |
| **Bərpa quraşdırma işlərinin həcmi** | 21.5 mln. manat |
| **Ərazidəki müəssisə və təşkilatlar** | 528 |
| **Yaradılan yeni müəssisələrin sayı** | 4 |
| **Açılan yeni iş yerlərinin sayı** | 216 |

**Mənbə:** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir
https://economy.gov.az/article/kelbecer-lachin-%20iqtisadi-rayonu-2017/22687 (2020)

Hal-hazırda ordumuz tərəfindən işğalçılardan geri alınan ərazilərimizin bərpa prosesi, rayonlarda və kəndlərdə ən müasir standartlara uyğun şəkildə infrastrukturun qurulması məsələsi, bu illər ərzində ermənilər tərəfindən dağıdılmış tarixi abidələrin bərpası və regionda yaşayış şəraitinin yaxşılaşdırılması üçün işlər tam sürətlə həyata keçirilir.

Azərbaycan Respublikası Prezidentinin vermiş olduğu 10 dekabr 2021-ci il tarixli digər bir sərəncamına diqqət yetirsək, azad olunmuş ərazilərin iqtisadi canlanmasının daha da sürətləndirilməsi, ərazilərdə mövcud olan istehsal və sənaye potensialının reallaşdırılması və bunun kimi digər məsələləri əsas tutaraq qərarlar qəbul edildiyini görə bilərik.

Qərarlara diqqət yetirsək:

— Geri alınan ərazilərdə iqtisadi və əmək resurslarının səmərəli idarəsinin təşkil olunması. Bunlarla yanaşı vergi, sosial sığorta və digər güzəştlərin tətbiq olunması;

— Regiona istehsalla məşğul olan sahibkarlara xüsusi olaraq xammal və materialların idxalı prosesi ilə bağlı gömrük və vergi güzəştlərinin təyin olunması;

— Həmçinin bu şəxslərə kommunal xidmətlərdə də güzəşt edilməsi;

— Bilik və bacarıqlara sahib olan mütəxəssislərin bu regiona cəlb edilməsinin təmin edilməsi;

— Qarabağ ərazisində "yaşıl artım" yaradan, bərpa olunan enerjidən yararlanan investorların dəstəklənməsi;

— Regionda qurulacaq yeni yaşayış massivlərinin inşası prosesində dövlət-özəl sektorların birgə fəaliyyətinin inkişafı;

— Sadalanan bütün təklifləri Nazirlər Kabineti tərəfindən hazırlanıb Azərbayan Respublikası Prezidentinə təqdim olunması məsələlərini görə bilərik (https://www.taxes.gov.az/az/post/1698).

## 3.2. Qarabağ və Şərqi Zəngəzur regional bölgələrinin inkişafının Azərbaycan ÜDM-nə təsiri

Vətən müharibəsindən qələbə ilə ayrılan dövlətimiz öz gələcək inkişaf strategiyasını regiondakı mövcud vəziyyətə uyğun müəyyənləşdirmişdir. Azərbaycan zamanla yaranmış olan böhranlardan üzüağ çıxmasında əsas səy göstərən heç şübhəsiz ki ölkə başçımız İlham Əliyev olmuşdur. Onun imzaladığı " Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" haqqında sərəncam qarşıdakı 10 il ərazində ölkəmizin yüksəlişi üçün əsas sənəd hesab olunur (Baxşəliyev R., 2021).
Geridə qoyduğumuz 2020-ci il ölkəmizin qazanmış olduğu qələbə ilə yanaşı, həm də COVID-19 pandemiyasının yayılması ilə yadda qaldı. Dünya ölkələrində olduğu kimi, ölkə iqtisadiyyatımız da pandemiyanın mənfi təsirləri ilə üzləşdi. Yaranmış olan vəziyyətə qarşı dövlətimiz tərəfindən bir sıra tədbirlərin həyata keçirilməsi ilə iqtisadiyyatın tənəzzül vəziyyətinə çatmasının qarşısını demək olar ki alındı. Görülən bütün tədbirlərin nəticəsi olaraq iqtisadi bərpa prosesi isə 2021-ci ilin may ayından etibarən başladı (http://www.maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/static-pages/files/61c73d7480543.pdf).

Tarixi qələbədən sonra ölkəmiz yaranmış olan yeni imkanlardan səmərəli istifadə etməklə azad olunan regionun inkişafına nail olmaq niyyətindədir. Onuda qeyd edək ki, artıq bu ərazilərin ən qısa zaman regionda inkişafına nail olunması üçün ilkin addımlar atılmışdır. Ərazilərin inkişafına dair reallaşdırılan layihələrin fasiləsiz həyata keçirilməsi üçün isə ərazilərin minalardan təmizlənməsi prosesi sürətli şəkildə aparılmalıdır. Bu məsələnin öz həllini tapması həm də məcburi köçkün olan vətəndaşlarımızın öz evlərinə qayıtması məsələsini həll etmiş olacaqdır.

Bildiyimiz kimi, ərazilərdə səmərəli idarəetmə sistemini formalaşdırmaq üçün "Azərbaycan Resublikasında iqtisadi rayonların yeni bölgüsü" haqqında sərəncam imzalanmışdır. Bu sərəncama görə işğaldan azad edilən rayonlarımız Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında cəmləşdirilmişdir.

Yeni yaradılan Şərqi Zəngəzur iqtisadi rayonu ölkəmizin iqtisadi qüdrətinin gücləndirilməsində xüsusi rola sahib olacaqdır. Həmçinin regionda sosial-iqtisadi inkişafın sürətlənməsinə də təkan olacaqdır. Bu iqtisadi rayonun dövlətimizin siyasi və iqtisadi həyatına geri qayıtması tarixi addım kimi dəyərləndirilir. Region üçün əhəmiyyətli hesab olunan Zəngəzur nəqliyyat dəhlizi həm türk dünyasını həm də regionlarımızı birləşdirmək üçün əsas rola sahib olacaqdır. Bu iqtisadi rayon üçün nəzərdə tutulan layihələrin reallaşdırılması ilə burada daimi iş yerlərinin sayı artacaqdır (Алиев Ш.Т., Мурадлы М.Г. və Велиева Л.М., 2021).

İqtisadi göstəricilərə diqqət yetirsək, 2020-ci ilin icmal büdcəsinin kəsrlə yekunlaşdığını, lakin 2021-ci ilin 10 ayı üzrə göstəricilərinə baxdıqda gəlirlərin xərcləri üstələməsinin nəticəsi olaraq büdcədə artıqlığın yarandığını görə bilərik. 2020-ci ilin büdcə xərclərinin əsasını ölkənin müdafiə səviyyəsinin artırılması, əhalinin sosial müdafiəsi və ölkədə mövcud olan pandemiyanın nəticələrinə qarşı görülən tədbirlərin təşkil etdiyini görə bilərik (http://www.maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/staticpages/files/61c73d7480543.pdf).

2021- ci il iqtisadi göstəricilərə görə təkcə neft-qaz sektorunda deyil, qeyri-neft sektorunda da artım baş vermişdir. Beləliklə, əvvəlki ilə nəzərən 2021-ci ildə ÜDM-də artım baş vermişdir. Daha da dəqiqləşdirdikdə real ifadədə ÜDM 5.6% yüksələrək 92.9 mlrd manat olmuşdur. “Adambaşına düşən real ÜDM 5.1% artaraq 9269.3 AZN və ya 5452.5 ABŞ dolları (əvvəlki ilin eyni dövründə 4272.2 ABŞ dolları) olub” (https://economy.gov.az/article/esas-iqtisadi-gostericiler-2021/31676).

**Qrafik 1: ÜDM-in artım tempi**




**Mənbə:** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir
https://economy.gov.az/article/esas-iqtisadi-gostericiler-2021/31676 (2021)

Önəmli hesab olunan bir başqa qrafikə diqqət yetirsək, 2021-ci ilin yanvar ayından qeyri-neft sektorunda artım baş verdiyini görə bilərik. Bu sektor üzrə artım ilin sonunda 7.2% olaraq, ÜDM-in 62.2% həcmini təşkil etmişdir.

**Qrafik 2: Qeyri-neft ÜDM-in artım tempi**




**Mənbə:** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir
https://economy.gov.az/article/esas-iqtisadi-gostericiler-2021/31676 (2021)

2020-ci il yanvar-dekabr ayları üzrə əhalinin nominal gəlirləri ilə 2021-ci ilin eyni ayları üzrə nail olunan göstərici arasında 2,6% fərq müşahidə edilmişdir. Bu nəticəyə görə deyə bilərik ki, əvvəlki il ilə müqayisədə rəqəmlər artaraq nominal gəlir 57,2mlrd manat olmuşdur. Əldə olunan artım tempinin davamlı artmasına nail olmaq üçün sahibkarlıq, məşğulluğu dəstəkləyən bir sıra tədbirlər reallaşdırılmalıdır.

**Qrafik 3: Əhalinin nominal gəlirləri, artım tempi % ilə**




**Mənbə:** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir
https://economy.gov.az/article/esas-iqtisadi-gostericiler-2021/31676 (2021)

Bütün bu sadalanan makro iqtisadi göstəricilərdəki artımın baş verməsinin əsas səbəbkarı dövlət başçımız İlham Əliyev olmuşdur. 18 il ərzində həyata keçirdiyi genişmiqyaslı layihələrin nəticəsi olaraq iqtisadiyyat 3 dəfədən çox artmışdır. Azərbaycan öz müstəqilliyini bərpa etdiyi ildən bu günədək ölkə iqtisadiyyatına daxil olan investisiyaların həcmi 300 milyard dollara yaxın olmuşdur. Burdan bu nəticəyə gələ bilərik ki, zaman keçdikcə xarici investorlar tərəfindən ölkəmizə göstərilən maraq artmaqda davam edir. Regionda yeni açılacaq Zəngəzur dəhlizi layihəsinin reallaşması və yeni yaradılan iqtisadi rayonların inkişafına nail olmaqla ölkəmizə maliyyə yatırımı edəcək olan investorların sayında artım müşahidə olunacaqdır (Baxşəliyev R., 2021).

Ölkəmiz üçün əhəmiyyətli Zəngəzur dəhlizi regionda əməkdaşlığın və infrastrtukturun canlanmasına səbəb olacaqdır. Qeyd olunan bu dəhliz işğalçı ölkənin

ərazisindən keçsə də, əldə olunan razılaşmaya görə Azərbaycan administrasiyası Naxçıvanla yaradılacaq olan əlaqələrin bərpası işlərini öz öhdəsinə götürmüşdür.

Bəhs olunan layihənin reallaşması bu marşrut üzrə yükdaşımaların həcminin də artmasına şərait yaradacaq. Bildiyimiz kimi, layihənin reallaşması həm də regiondakı ölkələr arasında əlaqələrin yaxşılaşmasına gətirib çıxaracaq. Bunun nəticəsi olaraq, qardaş ölkə olan Türkiyə ilə Ermənistan arasında yaranacaq ticarətin həcmində də artım baş verəcəkdir.

Azad edilən Qarabağ bölgəsi ölkə iqtisadiyyatının inkişafına yeni təkan olacaqdır. Belə ki, bu ərazilər kənd təsərrüfatı sahəsində 10,4%, turizm üzrə 5,5%, nəqliyyatda 4,9%, emal sənaye sahəsində 4,3%, digər xidmətlərdə 1,4% artımın əldə olunması potensialına sahibdir.

İİTKM tərəfindən aparılan araşdırmalara görə, bu ərazilərdə reallaşdırılacaq olan daşımaların həcminin artması ilə ixracın həcmi təxmini 710 milyon dollar olacağı ehtimal olunur. Zəngəzur dəhlizinin fəaliyyətə başlaması həm də Bakı-Naxçıvan aviareyslərin subsiyaladırılması üçün xərclənən illik 10 mln dollar vəsaitə qənaət olunması deməkdir. Bu dəhliz sayəsində ölkəmiz Naxçıvan MR qonşu ölkənin ərazisindən keçməklə qaz tranzitini həyata keçirmək üçün ödədiyi xərclər də zamanla sıfırlanacaqdır (https://www.eurasian-research.org/publication/zengezur-koridorunun-azerbaycan-ve-bolge-icin-onemi/?lang=tr).

Dövlətimiz tərəfindən postmünaqişə dövründə ölkə iqtisadiyyatının canlandırılması, yaranmış böhrandan təsirlənən sahələrin inkişafına nail olmaq üçün hədəflər müəyyənləşdirilmişdir. Ölkədə qeyri-neft sənayesi üzrə ixrac potensialının artırılmasına nail olmaq məqsədilə sənaye istehsalının dəstəklənməsi üçün tədbirlər həyata keçirilir.

Ölkədə sənayenin modernləşdirilməsi və qeyri-neft sənaye sahəsində ixracın artırılmasına nail olmaq üçün sənaye istehsal sahəsinə dövlət dəstəyinin artırılmasına dair işlər həyata keçirilir.

Hal-hazırda ölkəmizdə iqtisadiyyatın digər sahələri ilə birgə sənaye sahəsinin inkişafına nail olmasına xüsusi önəm verilir. Bu sahədə mövcud olan təbii resursların istehsal prosesinə cəlb etmək və qabaqcıl tenologiyalardan daha geniş istifadə üçün tədbirlər həyata keçirilir. Qarşıdakı illərdə yeni yaradılan tam müasir sənaye müəssisələri ölkədə daxili tələbatı ödəyəcək və yerli məhsul həcminin artırılması ilə ixrac imkanının yüksəlməsinə səbəb olacaqdır.

Azərbaycanda hal-hazırda fəaliyyət göstərən sənaye parklarının sayı 5-dir. Ölkə başçısının 2021-ci ilin may ayında imzaladığı fərmana əsasən  sənaye parklar siyahısında 6-cı yerdə Ağdam rayonunda inşası reallaşan park olacaqdır.

Prezidentimiz tərəfindən təsdiqlənən yeni inkişaf strategiyasına əsasən reallaşdırılan tədbirlərin nəticəsində əldə olunan uğurlardan bu nəticəyə gələ bilərik ki, ölkə iqtisadiyyatının inkişaf dinamikası öz artım tempini 2022-ci ildə də davam etdirəcəkdir. Bununla yanaşı, ölkə başçısı çıxışlarında bu regionun gələcək inkişafına nail olmaq üçün ərazilərdə bütün imkanların var olduğunu diqqətə çatdırmışdır (Baxşəliyev R., 2021).

Ən qısa zaman müddətində Şərqi Zəngəzur iqtisadi rayonunda aparılan işlərin sürətləndirilməsinin nəticəsi olaraq bu ərazilərdə yüksək inkişafa nail olunacağını proqnozlaşdırmaq olar (Алиев Ш.Т., Мурадлы М.Г. və Велиева Л.М., 2021).

Azad olunan regionda kənd təsərrüfatı sahələrindən Qubadlı, Kəlbəcər və Zəngilanda tütünçülük, Ağdam və Füzulidə pambıqçılığın yenidən inkişaf etdirilməsi nəzərdə tutulur.

Ərazilərdə emal sənayesinin inkişafı üçün xammal bazasının olması və ixrac imkanları baxımından regionda meyvəçiliyin yenidən inkişafına diqqət göstəriləcəkdir (Fikrətzadə F.F və Hacıyeva S.İ., 2020).

**Cədvəl 10: Perspektivdə olan bitkiçilik məhsullarının istehsalı üzrə proqnoz, min ton (işğaldan əvvəlki illər üzrə)**

| | Taxıl istehsalı | Pambıq istehsalı | Tütün istehsalı | Kartof istehsalı | Tərəvəz məhsulları istehsalı | Bostan məhsulları istehsalı | Meyvə və giləmeyvə itehsalı | Üzüm istehsalı |
|---|---|---|---|---|---|---|---|---|
| DQMV | 155.7 | - | - | 20.3 | 12.3 | 17.5 | 12.1 | 24.1 |
| Ağdam rayonu* | 101.9 | 13.2 | - | 11.9 | 183.2 | 172.1 | 17.4 | 5.6 |
| Cəbrayıl rayonu | 33.4 | - | - | 0.3 | 3.5 | 68.4 | 5.7 | 12.6 |
| Füzuli rayonu* | 158.9 | 3.1 | - | 4.4 | 12.8 | 105.6 | 15.6 | 7.2 |
| Kəlbəcər rayonu | 2.9 | - | 0.4 | 1.7 | 1.8 | 24.9 | 3.6 | - |
| Qubadlı rayonu | 20.2 | - | 0.8 | 3.0 | 2.6 | 11.4 | 17.8 | 4.2 |
| Laçın rayonu | 7.4 | - | - | 1.7 | 1.4 | 24.8 | 3.6 | - |
| Zəngilan rayonu | 6.1 | - | 0.6 | 1.7 | 2.6 | 24.1 | 15.6 | 10.5 |
| Cəmi istehsalın həcmi | **486.5** | **16.3** | **1.7** | **45.1** | **220.3** | **448.8** | **91.2** | **64.2** |
| Ölkə üzrə cəmi istehsalın həcminə nisbət, % | **12.6** | **5.4** | **22.3** | **4.3** | **12.1** | **8.8** | **7.7** | **24.3** |

**Mənbə:** Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/ (1980)
*Ağdam və Füzulidə işğal altında olmayan ərazilərindəki faktiki istehsal nəzərə alınmaqla

Cədvəldə göstərilən məlumatlardan bu nəticəyə gələ bilərik ki, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan rayonlar üzrə bitkiçilik məhsullarının istehsalı müvafiq olaraq taxıl 70min ton, tütün 1.8min ton, kartof 8.4min ton, tərəvəz 11.9min ton, bostan məhsulları 4.6min ton, yem bitkiləri 153.6min ton, meyvə və giləmeyvə 46.3min ton, üzüm istehsalı isə 27.3 min ton təşkil edəcəyi proqnozlaşdırılır.

Ordumuzun Ali Baş Komandanının dediyi: "Mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru Cənnətə çevirəciyik" sözləri bir daha bu ərazilərdə ciddi dəyişikliklərin görülməsinin mümkün olacağına işarə olmuşdur (https://ereforms.gov.az/files/review/pdf/az/50106b9302c648fb32645cc9493f2dad.pdf).

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

II Qarabağ müharibəsi nəticəsində geri alınan ərazilərdə olan resurs potensialına uyğun aparılacaq iqtisadi inkişaf istiqamətləri və bu ərazilərin azad olunmasının ölkənin ÜDM göstəricilərinə təsirinin araşdırılması nəticəsində aşağıda göstərilən nəticələr əldə olunmuşdur:

- Bu regionda mövcud olan resuslar zamanla işğalçı ölkə tərəfindən mənimsənilmişdir. I Qarabağ müharibəsindən əvvəlki illərdə bu regionda mövcud olan resursların ÜDM göstəricisində xüsusi paya malik olmuşdur. Azad olunan rayonlarda mövcud olan resurs potensialının dövriyyəyə cəlb olunması ilə kənd təsərrüfatı sahəsi, emal sənayesi, xidmət sahələri və bunun kimi digər sahələrin inkişafına nail olunacaqdır. Regionda turizm və iqtisadi potensialın var olması turizm və xidmət sahələrinin inkişafına gətirib çıxaracaqdır.
- Torpaqlarımızın işğala məruz qalması bir çox sahələr üzrə əldə olunmuş nəticələrin aşağı enməsinə səbəb oldu və bunun nəticəsi olaraq ÜDM göstəricilərində hiss olunacaq qədər geriləmə baş verdi. Qeyd olunanlarla yanaşı ölkə üçün əhəmiyyətli hesab olunan Naxçıvan MR ilə birbaşa quru əlaqəsi itirildi.
- Müharibələrin baş verməsi ölkədə müdafiə və hərbi xərclərin artmasına və bununla yanaşı iqtisadi və sosial rifahın pozulması ilə nəticələnir. Müharibənin başa çatması ilə görüləcək olan yenidənqurma işləri üçün çəkilən xərcləridə bura qeyd edə bilərik.
- Müharibənin iqtisadi təsirlərinə xarici borcun, işsizliyin, səhiyyə və digər xərclərin yüksəlməsi aiddir. Dünyada baş verən dağıdıcı müharibələrə diqqət yetirsək, münaqişədən əvvəlki səviyyənin əldə olunması üçün vaxta gərək yarandığını görə bilərik.
- Dünya ölkələrinin təcrübəsinə uyğun olaraq münaqişədən sonrakı bərpa prosesi üçün münaqişə riskinin minimum səviyyədə olması əldə olunmalıdır. Münaqişədən zərər görən istənilən ölkə atacağı addımları müəyyən edərək inkişafa nail ola bilər.

Buna misal olaraq II Dünya Müharibəsindən təsirlənmiş Avropanın inkişafına nail olmaq üçün hazırlanan Marşall Planını deyə bilərik. Müharibədən təsirlənən ölkələrə dəstək üçün həyata keçirilən belə beynəlxalq yardımlar bu kimi ərazilərin yenidən qurulmasının sürətləndirilməsinə birmənalı olaraq səbəb olur.

- Azad edilən ərazilərdə mövcud olan xammal ehtiyatlarını dəyərləndirdikdə, yataqlara dəyən zərərin 76896mln manat həcmində olduğu müəyyən olunmuşdur. İşğalçı ölkə xarici şirkətləri əraziyə qanunsuz şəkildə cəlb edərək filiz, qızıl hasilatını reallaşdırmışdırlar.

- Azad olunan Zəngəzur iqtisadi rayonunda qızıl, civə, mis, gümüş və tikinti materialları prioritet istehsal sahələri kimi dəyərləndirilmişdir. İşğalçı ölkənin uzaq görən mənfur niyyətləri Azərbaycanın təbii ehtiyatlarına yönəlmişdir. Ərazilərdə olan yeni təbii resursların dövriyyəyə cəlb olunması ilə qeyri-neft sektorunda yüksəliş əldə olunacaqdır.

- İşğaldan azad edilən ərazilərində qeyri-neft sektorunun inkişaf potensialının dəyərləndirmələrindən olan Dövlət Statistika Komitəsinin məlumatlarına diqqət etdikdə, 1980-cı illər üçün Qarabağ ərazisində kənd təsərrüfatı məhsullarının istehsalı ölkə üzrə göstəricilərin 35-40%-ni təşkil etdiyini görə bilərik. 2015-2019-cu illər üzrə taxıl məhsullarının idxaldan asılılıq göstəricilərinə diqqət yetirdikdə rəqəmlərdə artımın əks olunduğunu görə bilərik. Ölkədə əsas ərzaq təhlükəsizliyinin təminatı sayılan taxıl istehsalının artmasında azad olunan ərazilərin öz payı olacaqdır. Taxılın miqdarında artımın əldə olunması öz növbəsində milyonlarla vəsaitin xərclənməsinin qarşısını alacaqdır.

- Ölkəmizin əzəli torpaqlarının işğalçılardan alınması ilə ərazilərdə olan təbii sərvətlərə və rekreasiya ehtiyatlarına görə regionda yeni kənd təsərrüfatı və sənaye müəssisələri, turizm düşərgələri və s yaradılacaqdır. Beləliklə, ərazilərdə görüləcək olan işlər burada yeni iş yerlərinin sayının artmasına səbəb olacaqdır.

- Regionun dirçəldilməsi üçün investisiyaları cəlb olunacaqdır və ölkəmiz bu istiqamətdə ilk olaraq Türkiyə və İtalya ilə danışıqlar aparmışdır. Xüsusilə qardaş

ölkənin yatırım şirkətləri yeni iqtisadi rayonların bərpa olunmasında mühüm rola sahib oldular.

- Regionda yenidənqurma prosesinin reallaşdırılması üçün sektorlar üzrə 27 milyard dollar həcmində investisiyanın ayrılması nəzərdə tutulmuşdur. Ərazilərdə əvvəlki yaşayış mühitinin yaradılması üçün digər ölkələrə məxsus olan şirkətlər də sərmaye yatırmaq niyyətindədir.

- Ölkəmizdə biznes mühitinin yaşılaşdırılması dair aparılan tədbirlərə diqqət yetisək, Dünya bankına məxsus "Doing Business" hesabatında ölkəmizin 2020-ci il üzrə yekun bal göstəricisi 78,5 olmuşdur. Əldə olunan nəticəyə görə Azərbaycan sıralamada 28 ci yerə sahib olmuşdur.

- Müharibənin yekunlaşması ilə ermənilər tərəfindən məhv olunan elektrik təminatı sistemləri əvəzinə yeni elektrik stansiyalarının tikintisi üçün işlər aparılmışdır. Ərazilərdə aparılacaq olan quruculuq işlərində sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlərə xüsusi güzəştlərin tətbiqi nəzərdə tutulmuşdur.

- Vətən müharibəsində şanlı ordumuzun sayəsində geri alınan rayonlarımızda yaşayışın təmin olunması üçün atılacaq işlərə ölkə başçımız tərəfindən start verilmişdir. Bununla bağlı Prezidentimiz tərəfindən bir çox sərəncam və qanunlar imzalanmışdır. Verilən tapşırıqlara əsasən ilk olaraq yol infrastrukturları və yaşayış binalarının evlərin yenidənqurulması nəzərdə tutulmuşdur. Artıq nəzərdə tutulan işlərdən yeni konsepsiyalar, beynəlxalq əhəmiyyətli Füzuli hava limanı, şose və dəmir yollar salınaraq istifadəyə verilmişdir.

- Qarabağ və Şərqi Zəngəzur iqtisadi əhəmiyyətə sahib olan rayonlarımızda görüləcək işlərin tam yekunlaşması ilə regionun inkişafına nail olunacaqdır. Bu iqtisadi rayonlarda bitkiçilik məhsullardan taxıl istehsalı üzrə 12,6min t, tütün istehsalında 22,3min t, üzüm istehsal üzrə 24,3min t məhsul əldə olunacağı gözlənilir.

- Geridə qoyduğumuz 2020-ci ildə büdcə xərclərinin əsas hissəsini demək olarki hərbi xərclər və COVİD-19-a qarşı görülən tədbirlər təşkil etmişdir. Sözü gedən

ərazilərin inkişafına nail olmaqda Zəngəzur dəhlizinin öz xüsusi rolu olacaqdır. Ölkənin 2020-ci ilin dekabr ayında ÜDM göstəricilərinə diqqət yetirsək real ÜDM-in 4,3% aşağı endiyini, 2021-ci ilin eyni ayında isə 5,6% artdığını görə bilərik. Ölkə başçısı tərəfindən yeni strategiyaya əsasən deyə bilərik ki, 2021-ci ildə əldə olunan iqtisadi göstəricilərdəki yüksəliş 2022-ci ildə də davam edəcəkdir.

Tədqiqat işində aparılmış təhlillər nəticəsində aşağıda göstərilən təkliflərin icra olunması məqsədəuyğun hesab edilə bilər:

- İAEƏ-də yenidənbərpası üçün yatırılacaq olan xarici investisiyaların sayının artmasına nail olunmalıdır. Belə ki, ərazilərdə yenidənquruculuq işlərinə maraq göstərən ölkələrin siyahısına Avropa İttifaqı ölkələrini və amerikanın rəqabətli şirkətlərini cəlb etmək üçün ilk öncə onların marağını cəlb etmək lazımdır. Zamanla imzalanmış olan müqavilələr və neft kontraktlarına diqqət yetirsək, vaxtı ilə bu ölkələrin nəhəng şirkətlərinin Azərbaycana yüz milyonlarla investisiya yatırdığını görə bilərik. Bu təklifin reallaşması Qarabağda dirçəlişin ən qısa müddətdə mümkün olması deməkdir.
- İndiki Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarında müharibədən əvvəlki iqtisadi potensialının əldə olunması üçün yaradılan sənaye əhəmiyyətli yeni infrastruktur obyektləri ilə yanaşı bu ərazilərdə kənd təsərrüfatı sahəsinin məhsullarının istehsalının artırılması üçün də müəyyən tədbirlər həyata keçirilməlidir.
- Ərazilərimizə qarşı törədilən işğalçılıq müddətində regiona vurulmuş ziyanın işğalçı ölkə tərəfindən tez bir zamanda ödənilməsinə nail olmaq üçün görülən tədbirlərin daha da sürətləndirilməlidir. Çünki, bu vəsaitin alınması ilə regionun yenidənbərpası işləri sürətlənəcəkdir.
- Azad olunan rayonlarda biznesin inkişafına nail olmaq üçün ilk növbədə dayanıqlı və rəqabətcil biznes mühiti yaradılmalıdır. Bunun üçün isə ilk növbədə bu regionda fərdi biznesini qurmaq istəyən sahibkarlara sərfəli biznes kreditləri, güzəştli vergi sistemi və güzəştli şərtlərlə enerji istehlakından

istifadə kimi xüsusi imkanlar yaradılmalıdır. Bu addımların atılması ilə öz el-obalarına qayıdacaq olan əhalinin işsizlik göstəricilərinin azalması təmin olunacaq və əhalinin rifah halı yaxşılaşacaqdır.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində

1. Abbasova T.C., Gözəlova S.M., "İnnovasiyayönümlü iqtisadiyyatın inkişafı və İKT-dən səmərəli istifadə edilməsi yolları". "Qlobal iqtisadi çağırışlar: Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, 2021, Bakı, s.101-104.

2. Allahverdiyeva A.U., "İşğaldan azad olunmuş ərazilərdə sahibkarlığın inkişafı istiqamətləri". "Qlobal iqtisadi çağırışlar: Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, 2021, Bakı, səh.143-146.

3. Bağırov O. (2020), Azad edilmiş ərazilərdə bərpa prosesinin əsas istiqamətləri. AirCenter, 9 səh.

4. Baxşəliyev R. "Zəfərin yaratdığı iqtisadi yüksəliş: İlham Əliyevin yeni inkişaf strategiyası Azərbaycanın postmüharibə dövrü üçün mühüm yol xəritəsidir". Azərbaycan qəzeti, Bakı, 23 noyabr, 2021. №253, səh.1-3.

5. Cəfərova E., Hüseynov V., Bağırov O., Hacıyev Ş., Əsgərova R., (2021), 44 günlük Qarabağ müharibəsi: mülahizə və nəticələr, Bakı, BMTM, 28 səh.

6. Əkbərov M., "Azad olunmuş rayonlarda kommersiya fəaliyyətinin bərpası yolları", UNEC ekspert, 2021, №1(10), səh.19-21.

7. Əliyeva T.Ə., "Azərbaycanin işğaldan azad edilmiş ərazilərində investisiya qoyuluşlarinin təhlili", Geostrategiya, 2022, № 01 (67), səh162-167.

**8.** Əliyev A.N., "Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sahibkarlığın inkişaf persektivləri". "Qlobal iqtisadi çağırışlar: Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, 2021, Bakı, səh.312-316.

9. Fikrətzadə F.F., Hacıyeva S.İ., “İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfatı sahəsinin bərpası istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdırılması”, Kənd təsərrüfatının iqtisadiyyatı, 2020, № 4 (34), səh.23-38.

10. Hüseynova E.İ., “İşğaldan azad olunmuş ərazilərdə mövcud reallıqlar, investisiya cəlbediciliyinin təhlili və perspektiv inkişaf istiqamətləri”. “Qlobal iqtisadi çağırışlar: Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri” mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, 2021, Bakı, səh.323-327.

11. Hüseynzadə S., “İşğaldan azad olunmuş ərazilərin bərpasi və müəssisələrin təşkilinin iqtisadi əsasları”, Geostrategiya, 2022, № 01 (67), səh.154-158.

12. Xeyirxəbərov İ., “İşğaldan azad edilmiş ərazilərinin aqro potensialinin ölkənin ərzaq təhlükəsizliyinin yüksəldilməsinə təsiri”, UNEC ekspert, 2021, №1(10), səh.34-35.

13. İbrahimov İ.H., “İşğaldan azad edilmiş ərazilərdə aqrar sahənin perspektiv inkişaf istiqamətləri”, Bazar iqtisadiyyatinin inkişaf istiqamətləri, 2021, №1 (31), səh.49-59.

14. Kaşiyeva F., “İşğaldan azad olunmuş ərazilərdə infrastrukturun bərpası”, UNEC ekspert, №1(10), səh.38-39.

15. Qurbanov A.A., “İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişafı”. "Qlobal iqtisadi çağırışlar: Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri” mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, 2021, Bakı, səh.67-70.

16. Quliyev M.S., “İşğaldan azad edilmiş ərazilərdə aqrar sektorun inkişaf xətti”. “Qlobal iqtisadi çağırışlar: Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri” mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, 2021, Bakı, səh.473-476.

17. Qocayev N., “Qarabağ iqtisadi rayonunda xidmət sahələrinin inkişaf meylləri və xüsusiyyətləri”, Geostrategiya, 2022 ,№ 01 (67), səh.138-142.

18. Rəşid L. İşğaldan azad edilmiş rayonların iqtisadi potensialı və inkişaf perspektivləri. Xalq qəzeti, 9 dekabr, 2020. səh.9.

19. Manafov Q., "İşğaldan azad edilmiş ərazilərin dirçəldilməsinin iqtisadi aspektləri", UNEC ekspert, 2021, №1(10), səh.6-9.

20. Məmmədov R.H., "Kommersiya banklarının elektron bank xidmətlərinin işğaldan azad edilmiş rayonlarda biznes mühitinin formalaşmasında rolu". "Qlobal iqtisadi çağırışlar: Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, 2021, Bakı, səh.308-312.

21. Məmmədova A., "Azərbaycanin işğaldan azad olunmuş ərazilərinin iqtisadi potensiyali və onun ölkə iqtisadiyyatinin inkişafindaki gözlənilən rolu", Geostrategiya, 2022, № 01 (67), səh.113-117.

22. Nadirova A.İ., "İşğaldan azad olunmuş ərazilərdə səmərəli investisiya qoyuluşları". "Qlobal iqtisadi çağırışlar: Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, 2021, Bakı, səh.163-166.

23. Namazova C.B., "Heydər Əliyev müstəqil Azərbaycanın yaradıcısıdır". "Qlobal iqtisadi çağırışlar: Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, 2021, Bakı, səh.18-21.

24. Rüstəmova G.M., "Azərbaycan Respublikası ərazisində bank sektoru – Muğan Bank ASC‖-də idarəetmə strukturu və işğaldan azad olunmuş ərazilərdə bank sektorunun yaradılması". "Qlobal iqtisadi çağırışlar: Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, 2021, Bakı, səh.492-496.

25. Rasimzadə E.Ə, (2018). Ermənistan tərəfindən işğal olunmuş azərbaycan respublikasi ərazilərinin təbii resurslarina vurulan zərərlərin iqtisadi-coğrafi qiymətləndirilməsi, Bakı Dövlət Universiteti, Bakı, 76 səh.

26. Sadıqov E., “Vətən müharibəsindən sonra Qarabağ bölgəsinin Azərbaycanın bazar iqtisadiyyatına təsiri”. UNEC ekspert, 2021, №1(10), səh.14-15.

27. Vəliyev A.H., “İşğal altında olmuş ərazilərdə kənd təsərrüfati torpaqlarının potensialının dəyərləndirilməsi”. Kənd təsərrüfatının iqtisadiyyatı, 2020, №3 (33), səh.60-71.

**Türk dilində**

1. Karamızrak B., Karaca C., “Savaşların Ekonomi Üzerindeki Etkileri”. Uluslararası İnsan ve Toplum Bilimleri Araşdırmalarıl, 2018, İTOBİAD KONGRE/18. s.161-170.

**İngilis dilində**

1. Aliyev R., Mahmudova S., “Directions of entrepreneurship development in the territories liberated from occupation”, Journal of Economic Growth and Social Welfare, 2021, №2, p.31-41.

2. Aliyeva A., “The potential growth of agriculture sector in Azerbaijan”, Scientific Collection Interconf, 2020, №1(37), .59-64.

3. Ibrahimov R., “Economic potential of the liberated territories of Azerbaijan: A brief overview”, Caucasus Stategic Perspectives, 2021, vol.1, p.71-80.

4. Joshua S. Goldstein (2003), “War and Economic History”. The Oxford Encyclopedia of Economic History, ed. Joel Mokyr, p.1-5.

5. Devarajan S., Mottaghi L (2017). Middle East and North Africa Economic Monitor, 49.p.

6. Muzaffarlı N (İmanov), İsmayılov E (2009), “The rehabilitation of the post-conflict territories”, the caucasus and globalization, Volume 3, Issue 2-3, s7-26

7. Makdisi S., Soto R.(2020) “Economic Agenda for Post-Conflict Reconstruction”, The Economic Research Forum (ERF). Working Paper №1395, 49.p.

8. World Eonomic and Social Survey 2017, Reflecting on Seventy Years of Development Policy Analysis. 216.p.

## Rus dilində

1. Алиев Ш.Т., Мурадлы М.Г., Велиева Л.М., “Стратегическое значение и перспективы развития восточного зангезурскогот зкономического района азербайджана”, Scientific Collection Interconf, 2021, № 72. с.11-18.

## İnternet resursları

1. https://vergiler.az/news/news/10830.html, 2020
2. https://president.az/az/articles/view/50474, 2021
3. https://science.gov.az/az/news/open/18420, 2021
4. https://xalqqazeti.com/mobile/az/83898, 2021
5. https://economy.gov.az/article/kelbecer-lachin-%20iqtisadi-rayonu-2017/22687, 2020
6. https://www.economy.gov.az/
7. https://ereforms.gov.az/az
8. https://www.state.gov/
9. https://www.worldbank.org/en/programs/business-enabling-environment, 2020
10. https://unctad.org/topic/investment/world-investment-report, 2021
11. https://www.taxes.gov.az/az/post/1698, 2021
12. http://www.maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/static-pages/files/61c73d7480543.pdf, 2022
13. https://www.eurasian-research.org/publication/zengezur-koridorunun-azerbaycan-ve-bolge-icin-onemi/?lang=tr, 2021.
14. https://economy.gov.az/article/esas-iqtisadi-gostericiler-2021/31676, 2021

15. https://ereforms.gov.az/files/review/pdf/az/50106b9302c648fb32645cc9493f2dad.pdf, 2021

16. https://iqtisadiislahat.org/news/vusal_qasimli_qarabagin_boyuk_iqtisadi_potensiali_var-1050, 2021

17. https://azerbaijan-news.az/posts/detail/qarabag-en-qisa-zamanda-cennete-cevrilecek-1611001333, 2021

18. https://www.stat.gov.az/, 1980

## Sxemlərin siyahısı

**Sxem 1:** Yenidən bərpanın həyata keçirilməsi üçün müəyyən edilmiş məqsədlər.................... 15
**Sxem 2:** Azad olunan ərazilərdə aparılacaq olan tədbirlərin rayonlar üzrə dəyərləndirilməsi... 17
**Sxem 3:** Faydalı qazıntı yataqlarının istismarı aparıla bilər.................................................... 30
**Sxem 4:** Azad olunmuş ərazilərdə kənd təsərrüfatı sahəsinin bərpası istiqamətləri.................. 38
**Sxem 5:** Türkiyə şirkətlərinin iştirak etdiyi layihələr.............................................................. 50
**Sxem 6:** "Azərbaycan 2030: sosial iqtisadi inkişafa dair Milli Prioritetlər" haqqında 2021-ci il 2 fevral tarixli sərəncamına əsasən reallaşdırılmalı olan məsələlər...................................... 51

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** Əlaqələndirilmiş Qərərgah tərəfindən qarşıya qoyulmuş məsələləri reallaşdıracaq işçi qruplar.............................................................................................................................. 16
**Cədvəl 2:** Müxtəlif təbii ehtiyatların növlərinə görə faydalı qazıntı yataqların istismarı nəticəsində yataqların xalis dəyəri və nəticədə yaranan itkilər................................................. 28
**Cədvəl 3:** Rayonlar üzrə prioritet istehsal sahələrinin seçilməsi uyğun hesab edilir................ 31
**Cədvəl 4:** İşğaldan azad edilmiş ərazilərin təbii ehtiyatların növləri və onların ümumi həcmi 33
**Cədvəl 5:** Bitkiçilik məhsullarının istehsalı, min ton (işğaldan əvvəlki dövr üçün)................. 35
**Cədvəl 6:** Əsas növ ərzaq məhsullarının ehtiyatlarında idxal payı, %..................................... 36
**Cədvəl 7:** Azərbaycanın Dünya Bankının biznes hesabatındakı göstəricisi............................. 42
**Cədvəl 8:** Azərbaycanın Birbaşa Xarici İnvestisiyalar (BXİ) üzrə göstəriciləri (milyon dollar)................................................................................................................................... 48
**Cədvəl 9:** Kəlbəcər-Laçın iqtisadi rayonu (sosial-iqtisadi göstəricilər)................................. 55
**Cədvəl 10:** Perspektivdə olan bitkiçilik məhsullarının istehsalı üzrə proqnoz, min ton (işğaldan əvvəlki illər üzrə)........................................................................................... 62

## Şəkillərin siyahısı

**Şəkil 1:** İşğal altında olmuş bölgələrdə faydalı qazıntı ehtiyatlarının yerləşməsi..................... 32
**Şəkil 2:** Qarabağ və Şərqi Zəngəzur: əsas avtomagistral yollar.............................................. 52
**Şəkil 3:** Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında dəmiryol xətləri və hava limanları.. 53

## Qrafiklərin siyahısı

**Qrafik 1:** ÜDM-in artım tempi......................................................................................... 58
**Qrafik 2:** Qeyri-neft ÜDM-in artım tempi.............................................................................. 59
**Qrafik 3:** Əhalinin nominal gəlirləri, artım tempi % ilə........................................................... 59